

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 63 (7318) / Çərşənbə, 10 aprel 2019-cu il


"Opinion Way":

# Respondentlərin 90,5 faizi Prezident İlham Əliyevin apardığı islahatları dəstəkləyir

BAX SƏH. 4





*Prezident İlham Əliyev:*

## ...Sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin

⇨ Bax: səh. 2

## Məşhur pianoçu Denis Matsuyev Heydər Əliyev Sarayında konsert verib



⇨ Bax: səh. 3

⇧ Bax: səh. 3



*Müdafiə Nazirliyi:*

### Ermənistan müdafiə nazirinin beynəlxalq terrorçu kimi çıxış etməsi anormal düşüncəli şəxsin sayıqlamasıdır

⇧ Bax: səh. 7



### Nurlana Əliyeva Dövlət Təhlükəsizlik Xidmətinin medalı ilə təltif olunub

⇧ Bax: səh. 5

### Son bir ilin uğurları növbəti illər üçün böyük stimuldur




4 Əməkdaşlıq məsələləri müzakirə olunub

14 Müəllim adının müqəddəsliyini və dəyərini unutmaq olarmı?

16 Qulaqda küy nələrin əlamətidir?

*Prezident İlham Əliyev:*

# ...Sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin

## PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA AZƏRBAYCANIN 10 MİLYONUNCU SAKİNİNİN VALİDEYNLƏRİ İLƏ GÖRÜŞÜBLƏR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.**



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, dövlətimizin başçısı və xanımı uşağın valideynləri ilə söhbət etdilər.

Rauf Həsənov: 2019-cu il aprelin 6-da saat 03.30 radələrində dünyaya gəldi.

Prezident İlham Əliyev: Bilirəm. Biz bu hadisəni izləyirdik. Aprelin 6-da sizin həyatınızda, eyni zamanda, ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin.



Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

Rauf Həsənov: Biz gözləmirdik ki, bizim körpəmiz Azərbaycanın 10 milyonuncu sakini olar.

Prezident İlham Əliyev: Əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda, onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır.

Rauf Həsənov: Mənim xəbərim yox idi. Mətbuat xəbərlərinə girib oxudum, gördüm ki, sağ olun, elə ilk öncə Siz təbrik etmisiniz.

Prezident İlham Əliyev: Bəli, bəli.

Rauf Həsənov: Çox sağ olun, çox minnətdarıq.



Birinci xanım Mehriban Əliyeva: Çox göyçək uşaqdır.

Prezident İlham Əliyev: Bu, sizin birinci uşağınızdır?

Rauf Həsənov: Bəli, ilk övladımızdır.

Birinci xanım Mehriban Əliyeva: İlk uşağınızdır?

Nigar Ocaqova: Bəli, ilk uşağımızdır.

Birinci xanım Mehriban Əliyeva: Maşallah, Allah qorusun.

Rauf Həsənov: Elə ilk olaraq Siz təbrik etdiyinizə görə adını da Sizin adınızı qoyduq.

Nigar Ocaqova: Siz də xeyir-duasını verin.

Birinci xanım Mehriban Əliyeva: Verirəm. Xoşbəxt böyüsün, sağlam böyüsün.

Prezident İlham Əliyev: Bu hadisəni bütün xalqımız bayram edir.

Rauf Həsənov: Bəli, bütün ölkəmiz bayram edir. Biz də çox sevincliyik, çox sevinirik.

Nigar Ocaqova: Biz də şəhərimizin belə gözəl tibb ocaqlarının olmasına sevinirik. Perinatal Mərkəzin direktoru Sevinc xanıma, körpənin sağlam şəkildə dünyaya gəlməsinə görə Rübabə xanıma təşəkkürümüzü bildiririk. Sağ olsunlar.

Prezident İlham Əliyev: Bu mərkəz çoxdan fəaliyyət göstərirdi. Təqribən 10 il bundan əvvəl əsaslı şəkildə yenidən quruldu, təmir olundu və indi ölkəmizin aparıcı tibb mərkəzlərindən biridir. Son illərdə ölkəmizin hər bir yerində doğum evləri, doğum şöbələri, xəstəxanalar tikilir. Yəni, indi tibbi xidmət almaq üçün bütün şərait var.

Birinci xanım Mehriban Əliyeva: Götürmək olar balacanı?

Rauf Həsənov və Nigar Ocaqova: Buyurun.

Birinci xanım Mehriban Əliyeva: Maşallah.

Nigar Ocaqova: Maşallah gününüz olsun.

Birinci xanım Mehriban Əliyeva: Allah qorusun! Xoşbəxt, sağlam, analı-atalı böyüsün!

Rauf Həsənov: Çox sağ olun ki, gəldiniz.

Prezident İlham Əliyev: Bu, Həsənova Mehriban Rauf qızının sertifikatıdır. Ölkəmizin 10 milyonuncu sakinidir. Bunu sizə təqdim edirəm.

Rauf Həsənov: Çox sağ olun.




Prezident İlham Əliyev: Bu həmin sertifikatın başqa variantıdır. Sizə dövlət tərəfindən mənzil hədiyyə olunur. Bu da mənzilin çıxarışıdır.

Rauf Həsənov: Çox sağ olun.

Prezident İlham Əliyev: Gözəl balanızın hesabına vəsait də köçürülür.

Rauf Həsənov: Çox sağ olun. Allah Sizdən razı olsun.

Prezident İlham Əliyev: Xeyirli işlərdə istifadə edin. Bu da hədiyyələrdir.

Rauf Həsənov: Çox sağ olun. Sizə minnətdaram.

Birinci xanım Mehriban Əliyeva: Çox sağ olun. Təbrik edirik.







# Məşhur pianoçu Denis Matsuyev Heydər Əliyev Sarayında konsert verib

**Aprelin 8-də Heydər Əliyev Sarayında dünyaca məşhur virtuoz pianoçu, Rusiyanın Xalq artisti, UNESCO-nun xoşməramlı səfiri Denis Matsuyev konsert proqramı ilə çıxış edib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva konsertdə olublar.





Konsertdə Denis Matsuyev L.Bethovenin fortepiano üçün "17 nömrəli Sonata"sını, S.Raxmaninovun fortepiano üçün Korelli mövzusunda variasiyalarını, F.Şopenin "4 nömrəli Ballada"sını, P.Çaykovskinin "Düşüncə"sini, S.Prokofyevin fortepiano üçün "7 nömrəli sonata"sını və digər əsərləri ifa edib.

Denis Matsuyev haqlı olaraq zəmanəmizin ən görkəmli pianoçularından biri hesab edilir. Onun səhnə tərəfdaşları arasında ABŞ, Fransa, Almaniya, Böyük Britaniya, İtaliya, Avstriya, Niderland, Macarıstan və digər ölkələrin məşhur simfonik orkestrləri və dirijorları olub. P.Çaykovski adına Böyük Simfonik Orkestri ilə fortepiano konserti Böyük Britaniyanın ən nüfuzlu "Gramophone" jurnalı tərəfindən 2014-cü ilin aprelində "Ayın albomu" adına layiq görülüb.

Qeyd edək ki, Denis Matsuyev 1975-ci ildə Rusiyanın İrkutsk şəhərində musiqiçi ailəsində anadan olub. Valideynləri balaca Denisdə musiqi qabiliyyətini görərək onu fortepiano dərslərinə yazıblar. İrkutskda o, Mayakovski adına 11 nömrəli musiqi məktəbində oxuyub. Pianoçu 1990-cı ildə valideynləri ilə birgə Moskvaya köçərək Moskva Dövlət Konservatoriyasının nəzdində olan musiqi məktəbində təhsilini davam etdirib. 1993-cü ildə D.Matsuyev Moskva Dövlət Konservatoriyasına daxil olub və tanınmış musiqiçilərdən dərs alıb.

D.Matsuyev 23 yaşında olarkən P.Çaykovski adına XI Beynəlxalq müsabiqədə uğurlu çıxışından sonra şöhrət qazanıb. Pianoçu öz yaradıcılığında novatorluq və Rusiya fortepiano məktəbinin ənənələrini birləşdirir. Bu gün Denis Matsuyev dünyanın ən yaxşı konsert zallarının arzulunan qonağı, ən böyük musiqi festivallarının mühüm iştirakçısı, Rusiyanın, Avropa, Şimali Amerika və Asiya ölkələrinin aparıcı simfonik orkestrlərinin daimi tərəfdaşıdır.

# Vasif Talıbov İndoneziyanın səfiri ilə görüşüb





**Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fanani ilə görüşüb.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri səfiri yenidən Naxçıvanda görməkdən məmnunluğunu bildirib, ötən il İndoneziya nümayəndə heyətinin "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018" tədbirlərində iştirakına görə təşəkkür edib. Həyata keçirilən səfərlərin əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayan Ali Məclisin Sədri Azərbaycan-İndoneziya əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini və iqtisadi-ticarət əlaqələrinin genişləndiyini bildirib.

Ali Məclisin Sədri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolunu diqqətə çatdırıb, mövcud imkanların təhsil və turizm əlaqələrinin inkişafına zəmin yaratdığını vurğulayıb.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edən Hüsnan Bəy Fanani muxtar respublikada olmaqdan şərəf duyduğunu qeyd edib. Nuhun vətəni Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsini və "Əshabi-Kəhf"in burada yerləşməsini muxtar respublikaya səfər edən İndoneziya nümayəndə heyətində dərin təəssürat yaratdığını deyən qonaq ölkəsində Naxçıvana böyük maraq olduğunu bildirib. Səfir muxtar respublika ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini və əməkdaşlıq üçün hazır olduqlarını diqqətə çatdırıb.

## Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyi qeyd ediləcək

Prezident İlham Əliyev Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

2019-cu ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi tamam olur.

Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir. O, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlər göstərməkdədir.

Müxtəlif konfessiyaların dini liderləri arasında böyük nüfuza malik olan Şeyxülislam Allahşükür Paşazadə bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunmaqla, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, ayrı-ayrı etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına sanballı töhfələr verir.

Sərəncamda qeyd olunur ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsinin təkliflərini nəzərə almaqla, Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.

Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Çingiz Abdullayev "Şərəf" ordeni ilə təltif edilib

Prezident İlham Əliyev Çingiz Abdullayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan ədəbiyyatının inkişafı və təbliğində xidmətlərinə görə Çingiz Akif oğlu Abdullayev "Şərəf" ordeni ilə təltif edilsin.

## Prezident İlham Əliyevin tapşırığına əsasən Azərbaycan İrana humanitar yardım göndərəcək

Prezident İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyi Azərbaycan Hökuməti adından İranda aramsız yağan yağışlar nəticəsində baş vermiş təbii fəlakətlə əlaqədar bu ölkəyə humanitar yardım yola salacaq.

Fövqəladə Hallar Nazirliyindən Trend-ə verilən məlumata görə, hazırda ümumi dəyəri 950 min manat olan humanitar yardımın yola salınması üçün müvafiq hazırlıq işləri görülür.

Qeyd edək ki, baş vermiş təbii fəlakət insan itkisi və dağıntılara səbəb olub, infrastruktura ciddi ziyan dəyib.

## *Müdafiə Nazirliyi:* Ermənistan müdafiə nazirinin beynəlxalq terrorçu kimi çıxış etməsi anormal düşüncəli şəxsin sayıqlamasıdır

Ermənistan müdafiə nazirinin səsləndirdiyi növbəti sərsəm fikirlər heç bir normal məntiqə sığmayan, anormal düşüncəli şəxsin sayıqlamasına bənzəyir.

Bunu Ermənistanın müdafiə naziri David Tonoyanın guya Azərbaycan ərazisində xaos yaratmaq məqsədilə düşmən tərəfinin kəşfiyyat bölmələrinin fəallaşması ilə bağlı dediyi fikirləri AZƏRTAC-a şərh edərkən Müdafiə Nazirliyi mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib.

"Ermənistan hakimiyyətini təmsil edən bu şəxsin beynəlxalq terrorçulara bənzər tərzdə çıxış etməsi, bu məntiqlə davranaraq dinc əhaliyə qarşı açıq-aydın təhdid dolu fikirlər səsləndirməsi xaosun məhz rəsmi Yerevanın hazırkı rəhbərliyində mövcud olduğunu sübut edir.

İşğalçı ölkənin müdafiə nazirinin son çıxışları N.Paşinyan hakimiyyətinə qarşı yönəlmiş və D.Tonoyanın gələcək siyasi karyerası üçün hesablanmış hiyləgər planın bir hissəsidir.

Ermənistan rəsmilərinin müharibə hədəsi ilə dolu səsləndirdikləri təhdidləri ciddi qəbul etməyən Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə tam hazırdır", - deyə polkovnik V.Dərgahlı qeyd edib.

## "Opinion Way":

# Respondentlərin 90,5 faizi Prezident İlham Əliyevin apardığı islahatları dəstəkləyir








**Aprelin 9-da "Opinion Way" şirkətinin Azərbaycan Respublikasındakı mövcud ictimai-siyasi vəziyyətə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahat kursuna, hökumətin ümumi daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədi ilə reallaşdırılan rəy sorğusunun nəticələrinə dair mətbuat konfransı keçirilib.**




Beynəlxalq Mətbuat Mərkəzində keçirilən mətbuat konfransında rəy sorğusunun nəticələrini elan edən Şirkətin rəhbəri Brüno Janbar vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycanın bütün bölgələrində 1-16 mart tarixində keçirilən sorğuda 2000 respondent iştirak edib.

Diqqətə çatdırılıb ki, sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Respondentlərin fikrinə istinadən bildirilib ki, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Ölkədə etnik, dini və ictimai-siyasi zəmində sabitlik hökm sürüb, ictimaiyyətdə narahatlıq doğuran ciddi hallar müşahidə edilməyib. Bütün bunlar ölkədaxili vəziyyəti və Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirməyi təmin edən amillər olub.

Həmçinin sorğunun "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz" sualına respondentlərin 85,1 faizi bütövlükdə müsbət cavab verib. Bu sualı onların yalnız 6,8 faizi "mənfi", 8,1 faizi "bilmirəm" kimi cavablandırıb.

Eyni zamanda, "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5 faizi bütövlükdə müsbət cavab verib, onlardan 64 faizi bu istiqamətdə hökumətin fəaliyyətini "tam bəyəndiyini", 26,5 faizi "əsasən bəyəndiyini" vurğulayıb, rəyi soruşulanların yalnız 6 faizi bu suala "bəyənmirəm", 3,5 faizi isə "bilmirəm" cavabını verib.

Ölkə başçısının seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair "Opinion Way"in sualına respondentlərin bütövlükdə 75,6 faizi müsbət cavab verib. Bununla bağlı rəyi soruşulanların yalnız 5,8 faizi verilən vədlərin yerinə yetirilmədiyi, 4,2 faizi isə cavab verməyə çətinlik çəkdiyi qənaətində olub.

Dövlət başçısının kadr islahatları da sorğuda iştirak edən vətəndaşlar tərəfindən yüksək qiymətləndirilib. Bununla bağlı sualları cavablandıran respondentlərin 78,8 faizi həyata keçirilən kadr siyasətinə birbaşa öz müsbət rəyini bildirib, onlardan 43,3 faizi bu sahədəki dəyişikliklərdən tam razı qaldığını, 35,5 faizi isə əsasən razı qaldığını nümayiş etdirib.

Sorğunun nəticələrinə görə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi korrupsiya əleyhinə mübarizə tədbirləri də cəmiyyət tərəfindən təqdir olunub. Rəyi soruşulanların 75,6 faizi korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən tədbirləri effektli və qənaətbəxş qiymətləndirib.

"Opinion Way"in "İlham Əliyevin qəbul etdiyi "Regionların sosial-iqtisadi inkişaf proqramı" və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində sizcə regionlar inkişaf edibmi" sualına respondentlərin 93,1 faizi "hə" cavabı verib, 72,3 faizi hökumətin bu istiqamətdəki fəaliyyətini tam müsbət, 20,8 faizi "əsasən müsbət" kimi dəyərləndirib.

Prezident İlham Əliyevin regionların inkişafına xüsusi diqqət göstərməsi həm də vətəndaşların böyük rəğbətini qazanıb. Bu mənada sorğuda ölkə Prezidentinin bölgələrə çoxsaylı səfərlərinin faydalılıq əmsalı respondentlərin 90,4 faizi tərəfindən müsbət dəyərləndirilib, 48,9 faiz bu səfərləri "çox yüksək", 27,5 faiz "əsasən yüksək", 14 faiz isə "qismən yüksək" kimi qiymətləndirib.

Sorğuda Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələr də əhalinin müsbət mövqeyini ifadə edib: Sorğuda iştirak edənlərin 89,9 faizi bu sualı müsbət cavablandırıb, onların 73,9 faizi suala "əla", 16,0 faizi "kafi" cavabı verib, 2,4 faizi "pis", 7,7 faizi isə "dəqiq bilmirəm" kimi münasibət bildirib.

Qeyd edək ki, sorğu anketindən istifadə edilməklə üz-üzə müsahibə formasında rəyi soruşulmuş respondentlərin müəyyənləşdirilməsi çoxmərhələli seçmə metodologiyası əsasında aparılıb. Seçmə toplusunun formalaşdırılması prosesinin müxtəlif mərhələlərində sosial-demoqrafik göstəricilərə əsaslanan kvotalardan istifadə edilib, yekun seçmə vahidlərinin müəyyənləşdirilməsi isə təsadüfi üsulla həyata keçirilib.

**Ceyhun Piriyev, Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# Əməkdaşlıq məsələləri müzakirə olunub



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev BMT-nin Cenevrə bölməsinin rəhbəri Mixael Möller ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və BMT arasında əməkdaşlıq, ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərini həyata keçirməsi, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi barədə müzakirələr aparılıb.

Hikmət Hacıyev həmsöhbətə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi və ölkəmizin mövqeyi barədə məlumat verib.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 26 dəfə pozub



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Acarlı, Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Son bir ilin uğurları növbəti illər üçün böyük stimuldur

## “GÜCLÜ DÖVLƏT, YÜKSƏK RİFAH” TEZİSİNİ FƏALİYYƏTİNİN ƏSAS PRİNSİPİ KİMİ QƏBUL EDƏN MÖHTƏRƏM PREZİDENTİMİZƏ MİLYONLARIN SEVGİSİ, DƏSTƏYİ ŞƏKSİZDİR

**Ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan 11 aprel 2018-ci il prezident seçkilərindən bir il ötür. Xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq növbəti 7 ilin hədəflərinin gerçəkləşməsinə yol açan möhtərəm Prezidentimiz İlham Əliyevin qələbəsi təbii ki, son 15 ilin uğurlarına söykəndi.**



2003-cü ildə keçirilən andiçmə mərasimində qarşıdakı illərdə görüləcək işləri açıqlayan dövlətimizin başçısı bu vədi vermişdir: “Ancaq bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına soz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.” Bu vədə sadiqlik Azərbaycanın davamlı inkişafını təmin etməklə yanaşı, cənab İlham Əliyevin 2008, 2013 və 2018-ci illər prezident seçkilərində qələbəsini şərtləndirdi.



Bir il zaman baxımından az olsa da, bütün sahələrdə əldə olunan uğurların statistikasına diqqət yetirdikdə bu günə qədərki uğurlu dövrün davamlılığı böyük qürur hissi yaradır. Möhtərəm Prezidentimiz İlham Əliyevin ötən il andiçmə mərasimində söylədiyi bu fikirləri yada salmaq istərdim: “Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.”

Son bir ilin hər ayı, hər günü mühüm hadisə ilə tarixə yazılıb. Belə ki, 11 aprel prezident seçkilərindən sonrakı növbəti ayda Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirildi. “Biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq” söyləyən dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında artan rolunu əsaslı şəkildə diqqətə çatdıraraq bildirdi ki, dörd mərhələdən - “Şahdəniz”, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP-dan ibarət Cənub Qaz Dəhlizi ölkəmizə əlavə siyasi, iqtisadi, maliyyə imkanları yaradacaq, zəngin təbii qaz resurslarımızın dünya bazarlarına bundan sonra onilliklər ərzində ixrac edilməsini təmin edəcək, valyuta axını artacaq, dayanıqlı inkişafımız daha da möhkəmlənəcək. Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin uğurlu icrasına söykənərək “Biz nadir və nümunəvi beynəlxalq əməkdaşlıq formatını yarada bildik” fikri də böyük inam və qətiyyətlə söylənildi. Bu mühüm hadisənin ardınca iyun ayında Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən olan TANAP-ın Türkiyənin Əskişəhər şəhərində açılış mərasimi keçirildi. TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürü kimi dəyərləndirildi. “TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir” söyləyən ölkə Prezidenti İlham Əliyev “Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq” vurğuladı. Beləliklə, ölkəmizin təşəbbüsü ilə başlanan TANAP layihəsi Azərbaycan qazının müxtəlif ölkələrə nəql olunmasını təmin edəcək. “TANAP ortaq baxışımızın ən son bəhrəsidir” söyləyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə TANAP-ı qarşıdakı illərdə həyata keçirəcəyimiz yeni layihələrin də müjdəçisi kimi qiymətləndirdi. Bu uğurların davamı olaraq ötən ilin oktyabrında “Star” neft emalı zavodu istifadəyə verildi. Dövlətimizin başçısı İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu icrasına davamlı töhfələr verən SOCAR-ın həyata keçirdiyi investisiya layihələrindən geniş bəhs edərək, “Star”ın açılışını böyük səylərin, investisiyaların nəticəsi kimi diqqətə çatdırmışdır. SOCAR-ın müxtəlif ölkələrdə, o cümlədən qardaş Türkiyədə reallaşdırdığı investisiya layihələri onun beynəlxalq nüfuzunu daha da artırır. “Star”-ın açılışı mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan SOCAR-ın 2008-ci ildən etibarən enerji sahəsində mühüm layihələr həyata keçirdiyini önə çəkərək bildirmişdir ki, SOCAR “Star” neft emalı zavodunu məhz bu sərmayə ilə ölkəmizə qazandırmışdır: “Son 30 ildə həyata keçirilən ən böyük real sektor sərmayəsi olan “Star” neft emalı zavodu Avropa, Yaxın Şərq və Şimali Afrika bölgələrində ən böyük neft müəssisələrindən biri olaraq, inşallah, uğurla fəaliyyət göstərəcək”.

Göründüyü kimi, enerji sektorunda uğurlarımız davamlıdır. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında daim diqqəti bu məsələyə də yönəldir ki, ötən əsrin 90-cı illərinin sonlarında, XXI əsrin əvvəllərində bəzi təhlilçilər deyirdilər ki, neft Azərbaycana xoşbəxtlik gətirməyəcək, problem gətirəcək. Ancaq biz bu təbii sərvətlərimizdən maksimum dərəcədə səmərəli istifadə edə bilmişik, ölkəmizi möhkəmləndirmişik, müstəqil dövlət qurmuşuq.

Neft siyasətinin uğurlu nəticəsidir ki, bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində davamlı addımlar atılır. Son bir ilin mühüm addımları sırasında sayca dördüncü Dövlət Proqramının qəbulunu qeyd etməliyik. Cənab İlham Əliyevin Prezident kimi ilk müsahibəsində “Hesab etmək olarmı ki, iqtisadiyyatın inkişafı üçün yeni mərhələ başlayır. İlk növbədə Sizdən hansı addımları gözləyəcəyik ki, iqtisadiyyatın inkişafı üçün bunlar zəruridir” sualına cavabını xatırlasaq, bildirmişdir ki, iqtisadiyyatımızın növbəti mərhələsi məhz özəl sektorun daha fəal iştirakından asılı olmalıdır və bu istiqamətdə bizim üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq. Sahibkarlar sinfi yaranacaq və beləliklə, özəl sektorun fəaliyyəti nəticəsində Azərbaycanın büdcəsi də artacaq, iş yerləri də açılacaq.

⇨ Davamı 8-9-cu səhifələrdə





# PREZİDENT İLHAM ƏLİYEVƏ XALQ DƏSTƏYİ:
# ildən-ilə yüksələn etimad






**Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət hər zaman Azərbaycan vətəndaşının yüksək etimadını və dəstəyini qazanıb. 2003-cü ildən bəri keçirilən bütün seçkilərdə hazırkı dövlət başçısı böyük səs fərqi ilə rəqiblərini üstələyib. Seçkilərin nəticələri göstərir ki, hazırda Prezident İlham Əliyev Azərbaycan xalqının qəbul etdiyi alternativsiz liderdir, sözün birbaşa mənasında onun nəzərəçarpacaq rəqibi siyasi səhnədə yoxdur.**



Keçirilən sorğular və xalqın əksər hissəsinin münasibəti deməyə əsas verir ki, qarşıdakı illərdə də bunun belə olacağına şübhə yoxdur. Çünki Prezident İlham Əliyevin siyasi kursu xalqın milli maraqlarına hər zaman cavab verir və zamanla ortaya çıxan yeni çağırışlarla səsləşir.

2018-ci ildə keçirilən prezident seçkilərində hazırkı dövlət başçısı 86,03 faiz səslə opponentlərini xeyli geridə qoyaraq xalqın mütləq çoxluğunun dəstəyini qazanmışdı. Lakin keçirilən rəy sorğularından məlum olur ki, bir il sonra Prezidentin reytinqi daha da yüksəlib.

Xarici sorğu şirkətlərinin keçirdikləri peşəkar sorğularda real həqiqətlər daha aydın təzahür edir. Bu baxımdan Fransanın “Opinion Way” sorğu şirkətinin bu ilin mart ayında ölkəmizdə keçirdiyi rəy sorğusunun nəticələri ekspertlər tərəfindən ciddi mənbə kimi qəbul edilir. Azərbaycanın demək olar ki, bütün bölgələrini əhatə edən rəy sorğusu Prezident İlham Əliyevin yenə də ölkə vətəndaşlarının yüksək etimadına malik olduğunu təsdiq edir.

Keçirilən rəy sorğusu Prezidentin demək olar ki, bütün fəaliyyət sahələrini əhatə etmişdir. Buna görə də əslində sözügedən sorğunun nəticələrini Azərbaycan xalqının Prezident İlham Əliyevin siyasi kursuna yüksək etimadı kimi də qiymətləndirmək olar.

“Opinion Way” şirkətinin keçirdiyi rəy sorğusunun nəticələrinə görə, prosesdə iştirak edən respondentlərin 80,1%-i ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi qiymətləndirmişlər. Sorğu iştirakçılarının fikrincə, dünyada və bölgədə baş verən mənfi proseslərdən asılı olmayaraq, Azərbaycanda ictimai-siyasi sabitliyin qorunub saxlanması, sosial-iqtisadi inkişafın davam etdirilməsi, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımların atılması məhz Prezidentin düşünülmüş siyasi fəaliyyəti nəticəsində mümkün olmuşdur. Təbii ki, bu amillər dövlət başçısının fəaliyyətini yüksək qiymətləndirməyə səbəb olmuşdur.

Burada son bir ildə həyata keçirilən geniş islahatların, sosial-iqtisadi layihələrin də xüsusi rol oynadığını vurğulamaq vacibdir. Məhz elə bunun nəticəsidir ki, sorğunun “Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz” sualına respondentlərin 85,1%-i bütövlükdə “müsbət” cavab vermişdir.

“Opinion Way”in “Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz” sualına sorğuda iştirak edənlərin 90,5%-i bütövlükdə müsbət cavab vermiş, onlardan 64% bu istiqamətdə hökumətin fəaliyyətini “tam bəyəndiyini”, 26,5%-i “əsasən bəyəndiyini” vurğulamışdır. Buradan bir daha aydın olur ki, son bir illik Prezidentliyi dövründə İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı işlər xalqın ona olan inam və etimadını daha da yüksəldib. Burada bir məqamı da vurğulamaq lazımdır ki, əksər beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları son bir ildə Azərbaycanda gedən sosial-iqtisadi prosesləri, həyata keçirilən islahat kursunu böyük maraqla izləyir və olduqca pozitiv səciyyələndirirlər. Dünya Bankının “Doing Business” hesabatında da Azərbaycan hazırda dünya miqyasında 25-ci yerdə qərar tutmuşdur. Aparıcı beynəlxalq reytinq agentlikləri Azərbaycanın sosial-iqtisadi və maliyyə durumunu yüksək qiymətləndirirlər. Odur ki, Prezident İlham Əliyevin Azərbaycan xalqının maraqlarını əks etdirən sosial-iqtisadi siyasətinin ölkə əhalisi tərəfindən bəyənilməsi tam təbii hesab olunmalıdır.

Keçirilən rəy sorğusunda digər suallara da respondentlərin cavabları maraqlı olmuşdur. Prezident İlham Əliyevin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair “Opinion Way”in sualına iştirakçıların bütövlükdə 75,6%-i müsbət cavab vermişdir. Sosioloqlar bu nəticəni onunla izah edirlər ki, Azərbaycan Prezidenti daim öz xalqı ilə birbaşa təmasdadır və onun sözü ilə əməli indiyə qədər daim vəhdət təşkil etmişdir. Bu vədlərin ardıcıl yerinə yetirilməsi nəticəsində Azərbaycan son on altı ildə öz dinamik inkişafını təmin etmiş, mühüm transmilli enerji və nəqliyyat layihələrini icra etmiş, planetin azsaylı kosmik dövlətləri sırasına daxil olmuş, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin əsaslı inkişafına nail olunmuşdur.

Prezident İlham Əliyevin kadr islahatları da sorğuda iştirak edən vətəndaşlar tərəfindən yüksək qiymətləndirilmişdir. Bununla bağlı sualları cavablandıran respondentlərin 78,8%-i həyata keçirilən kadr siyasətinə birbaşa öz müsbət rəyini bildirmiş, onlardan 43,3%-i bu sahədəki dəyişikliklərdən tam razı qaldığını, 35,5%-i isə əsasən razı qaldığını ifadə etmişdir.

“Opinion Way”in “İlham Əliyevin qəbul etdiyi “Regionların sosial-iqtisadi inkişaf proqramı” və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində sizcə regionlar inkişaf edibmi” sualına respondentlərin 93,1%-i “Hə” cavabı vermiş, 72,3%-i hökumətin bu istiqamətdəki fəaliyyətini “tam müsbət”, 20,8%-i “əsasən müsbət” kimi dəyərləndirmişdir.

Görünən odur ki, belə yüksək nəticənin əldə edilməsi onunla bağlıdır ki, ötən il regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramı uğurla başa çatmış, beşillik proqram uğurla yerinə yetirilmişdir. Üç proqramın icrası nəticəsində bölgələrin infrastrukturları müasir standartlara uyğun yenidən qurulmuş, minlərlə istehsal müəssisəsi açılmış, ayrı-ayrı sahələrin, o cümlədən qeyri-neft sektorunun əsaslı inkişafına nail olunmuşdur. Bu il isə regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul edilmiş və icrasına başlanmışdır. Prezident İlham Əliyevin regionların inkişafına xüsusi diqqət göstərməsi vətəndaşların böyük rəğbətini qazanmışdır. Sorğuda ölkə Prezidentinin bölgələrə çoxsaylı səfərlərinin faydalılıq əmsalı respondentlərin 90,4%-i tərəfindən müsbət dəyərləndirilmiş, 48,9% bu səfərləri “çox yüksək”, 27,5% “əsasən yüksək”, 14% isə “qismən müsbət” kimi qiymətləndirmişdir.

Prezident İlham Əliyev təkcə keçən il Azərbaycanın bölgələrinə 24 səfər etmiş, vətəndaşlarla birbaşa ünsiyyətdə olmuşdur. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı çoxsaylı sərəncamlar imzalamışdır. Bundan başqa, dövlət başçısının yerlərdə əhali ilə görüşləri, problemlərlə şəxsən tanış olması, onların qısa zamanda aradan qaldırılması və digər məsələlər bu sorğunun göstəricilərini şərtləndirən amillərdəndir.

Sorğunun Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələri də əhalinin müsbət mövqeyini ifadə etmişdir: Prosesdə iştirak edənlərin 89,9%-i bu suala müsbət cavablandırmış, onların 73,9%-i suala “əla”, 16,0%-i “kafi” cavab vermişdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu həmişə öz dinamikliyi, intensivliyi və məqsədyönlülüyü ilə xarakterizə olunur, daim milli maraqlara söykənir. Bunun nəticəsində Azərbaycan regional və qlobal əhəmiyyətli iqtisadi, siyasi və humanitar layihələrin mərkəzinə çevrilmiş, bir çox əhəmiyyətli əməkdaşlıq formatlarının təşəbbüskarı olmuşdur.

Görünən odur ki, “Opinion Way”in sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan xalqının Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir. Sözsüz ki, bu etimadın əsasında dövlət başçısının xalqın milli maraqlarına cavab verən siyasi kursu uğurla həyata keçirməsi dayanır.

**Taleh Turqut,**
***“İki sahil”***

*Siyavuş Novruzov:*

# Onlara heç öz yaxın ətrafındakılar əhəmiyyət vermir, o ki qaldı onların sözü ilə dövlət nəsə etsin

## Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri Siyavuş Novruzovun Trend-ə müsahibəsi

***- Siyavuş müəllim, son vaxtlar müxalifət düşərgəsi qalmaqalla, bir-birilərini təhqir etməklə gündəmə gəldi. Bununla bağlı Sizin fikirlərinizi öyrənmək istərdik.***

- Bəli, doğru qeyd edirsiniz. Çox təəssüf doğuran mənzərədir. Azərbaycan müstəqillik qazanandan meydan hərəkatından başlayaraq həmişə separatçı mövqe tutmuş insanlar bir təşkilatdan çıxıb o birinə üzv olur və ya ayrı-ayrı təşkilatlar yaradırlar. Sanki bunlara ehtiyac var. “Xalq hərəkatı”, “Milli Şura” kimi hər cür bər-bəzəkli adlar tapırlar ki, insanları cəlb etsinlər. Ancaq hamısı eynidir, yeni burada kənar adamlar yoxdur, eyni insanlardır - digər partiyalardan uzaqlaşdırılmış, çıxarılmış, qovulmuş, yaxud köhnə təfəkkürdən, köhnə fikirdən uzaqlaşmamış insanlar. Bəzilərinin 70 yaşı var, lakin hələ də öz yollarını tapa bilməyiblər, nə istədiklərini özləri üçün aydın edə bilməyiblər.

Onlar cəmiyyətə hər hansı yeni ideya verməyiblər və verməkləri də mümkün deyil. Bu baxımdan da həmin insanlar arasında kəskin şəkildə fikir ayrılığı, qarşıdurmalar var və hər birində ciddi şəkildə mənəm-mənəmlik, özündənrazılıq düşüncəsi var.



Yaxşı ki, onların bu hərəkətləri internet vasitəsilə canlı yayımda göstərilir və insanlar vaxtilə Azərbaycana kimlərin rəhbərlik etdiyini və yenidən rəhbərlik etmək arzusunda olduğunu bir daha görürlər.

Bu insanlar ayrı-ayrı təşkilatların maliyyəsi hesabına Azərbaycanda təxribat yaratmaq, sabitliyi pozmaq, qanunsuzluğu təmin etmək məqsədi güdür. Onlarda şəxsi maraqlar, şəxsi iddialar o dərəcəyə çatıb ki, nəinki Vətən, xalq, dövlət haqqında, heç bir-birilərinə, yaxın ətraflarına güzəştə getmək haqqında belə düşünmürlər.

Təbii ki, Azərbaycan hüquqi dövlətdir və güclü hüquq mühafizə orqanları var, o cümlədən Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı öz Prezidenti ilə bir yerdədir və dövlət başçısının siyasətini dəstəkləyir.

***- Son günlər bəzi müxalifət nümayəndələrinin də Azərbaycanda aparılan islahatları dəstəklədiyi müşahidə olundu. Sizcə, bunun səbəbi nədir?***

- Onlar artıq anlayırlar ki, düzgün yolda deyillər. Nə qədər insanı çaşdırmağa çalışdılar ki, guya bunlar mitinq etdilər, nümayiş keçirdilər, hansısa bəyanat verdilər və dövlət də filan addımları atdı. Həmin müxalifət nümayəndələri ancaq söyüş, qışqır-bağır və digər oxşar vasitələrlə gündəmə gəlirlər. Onlara heç öz yaxın ətrafındakılar əhəmiyyət vermir, o ki qaldı onların sözü ilə dövlət nəsə etsin.

Dövlət ardıcıl olaraq sosial sahədə addımlar atır. Bu sosial siyasəti həyata keçirmək üçün birinci növbədə iqtisadi baza lazımdır. İkincisi, ictimai-siyasi sabitlik yaratmaq, üçüncüsü isə digər dövlətlərlə qarşılıqlı münasibət qurmaq lazımdır. Dövlət bunu edir və bütün lazımi sosial, iqtisadi islahatları həyata keçirir. Bütün bunlar bilavasitə xalqın maraqlarına xidmət edir və xalq tərəfindən, ziyalılar tərəfindən, həmçinin müxalifətdə olan ayrı-ayrı insanlar tərəfindən dəstəklənir. Bunların içində xaricdə olan da var, Azərbaycanda olan da. Onlar başa düşürlər ki, Azərbaycanda xalq-iqtidar birliyi var, ölkədə hər hansı böyük dövlətin, təşkilatın deyil, xalqın maraqları ifadə olunur.

***- Siyavuş müəllim, dəfələrlə Milli Məclisdə müxalifət partiyalarının maliyyə hesabatı verməməsini və bununla bağlı qanun çərçivəsində tədbirlər görülməsini qaldırmısınız. Bununla bağlı məsələ nə yerdə qalır?***

- Bəli, biz bu məsələni qaldırmışıq, yaz sessiyasında da qanunvericiliyə daxil etmək fikrimiz var və mütəmadi şəkildə bu məsələyə toxunuruq ki, şəffaflıq təmin olunsun. Şəffaflıq yoxdursa, deməli, hansısa ölkələr, təşkilatlar, qruplar o insanları maliyyələşdirir və nəticə etibarilə də onlara xüsusi tapşırıqlar verir - ictimai-siyasi sabitliyi pozmağa cəhd, qarşıdurma yaratmaq. Ona görə də hər bir siyasi partiyanın büdcəsi şəffaf olmalıdır. Mərkəzi Seçki Komissiyasına hesabat verməlidirlər, o cümlədən ictimaiyyət qarşısında. Əgər şəffaflıq tələb edirlərsə, birinci növbədə bunu özlərində göstərməlidirlər. Heç yerdə işləməyən, lakin komfort həyat yaşayan, cangüdənlərlə gəzən bu insanlar bir belə pulu haradan alır? Buna görə də bütün siyasi partiyalar hesabat verməlidir.

### “Shell” Çində kəşfiyyata başlayır



Çinin “Sinopec” dövlət enerji şirkəti “Royal Dutch Shell” neft nəhəngi ilə birgə Şərqi Çində yerləşən “Şenqli” şist neft yatağını tədqiq etmək qərarına gəlib.

“İki sahil” qəzeti “Reuters” agentliyinə istinadən xəbər verir ki, bu birgə kəşfiyyat razılaşması Çində şist neft kəşfiyyatı sahəsində nadir hallardan biridir.

Xatırladaq ki, Çin şist neft istismarı sahəsində hələ çox erkən mərhələdədir. Şist neft Çinin ümumi xam neft hasilatının 1%-dən də az hissəsini təşkil edir.

### Nigeriyanın enerji sektoruna böyük sərmayə



Nigeriyanın neft-qaz sektoruna ingilis-holland şirkəti “Royal Dutch Shell” tərəfindən böyük investisiya yatırılacaq. Məlumatı Nigeriyanın “Bu gün” qəzeti yayıb.

Məlumatda bildirilir ki, “Shell” Nigeriyada 15 milyard dollar həcmində sərmayə yatırmağı planlaşdırır. Şirkət Nigeriyanın Milli Neft Korporasiyası, “Total”, “Production Nigeria”, “Nigerian Agip” şirkətləri ilə birgə müəssisə yaradacaq.

Dərin ofşor qazma, dayaz qazma işlərinə xüsusi sərmayə ayrılacaq.

“Shell” hazırda Nigeriyada gündəlik 300 milyon kubfut gücü olan “Assa North Ohaji” qaz layihəsi ilə bağlı yekun sərmayə qərarı verməyə hazırlaşır.

### Çoxdan gözlənilən müqavilə imzalanıb



Avstraliyanın “Oil Search”, Fransanın “Total” və ABŞ-ın “ExxonMobil” şirkətləri Papua Yeni Qvineya hökuməti ilə yeni müqavilə imzalayıblar. Müqavilə uzun müddətdir gözlənilən layihənin həyata keçirilməsi ilə bağlıdır və bu ölkənin mayeləşdirilmiş təbii qaz ixracını iki dəfə artırmasına səbəb olacaq.

“Layihə ilə bağlı yekun investisiya qərarı 2020-ci ildə veriləcək. Mayeləşdirilmiş təbii qaz daşınmasının gücləndirilməsinə isə 2024-cü ildən başlanılacaq”, - deyə “Oil Search” şirkətinin direktoru Piter Botten bildirib.

Layihə Papua Yeni Qvineyada “ExxonMobil” tərəfindən tikiləcək iki yeni emal müəssisəsinin və qatarları doldurmaq məqsədilə “Elk” və “Antelope” yataqlarının istismarını nəzərdə tutur.

# Nurlana Əliyeva Dövlət Təhlükəsizlik Xidmətinin medalı ilə təltif olunub

Bakı Slavyan Universitetinin (BSU) Elmi Şurasının aprelin 8-də keçirilmiş geniş iclasında universitetin rektoru, professor Nurlana Əliyevaya Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) rəhbərliyi tərəfindən “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” medalı təqdim olunub.

Qeyd edək ki, adıçəkilən medal Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir. Qanuna görə yubiley medalı ilə əsasən Azərbaycan Respublikasının milli maraqlarının daxili və xarici təhdidlərdən qorunmasında, milli təhlükəsizliyin təmin olunmasında fəal iştirak edən, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının inkişafında və dövlətçiliyinin tərəqqisində xüsusi xidmətləri olan şəxslər təltif edilirlər.



Medalı universitetin rektoru, professor Nurlana Əliyevaya DTX-nin rəsmiləri təqdim ediblər. Təqdimetmə mərasimində çıxış edən DTX-nin rəsmi nümayəndəsi medalın N.Əliyevaya Azərbaycan dövlətçiliyinin, ölkənin milli təhlükəsizliyinin qorunmasında göstərdiyi əvəzsiz xidmətlərə, vətənpərvər və təəssübkeş gənclərin tərbiyəsi sayəsindəki çoxillik ardıcıl fəaliyyətinə görə verildiyini bildirib. O, N.Əliyevanın müstəqil Azərbaycan dövlətinin formalaşmağa başladığı ilk günlərdən ulu öndər Heydər Əliyevin sədaqətli silahdaşlarından, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bütün çağırışlarına ilk səs verən ən əqidəli insanlardan olduğunu vurğulayıb. DTX rəsmisi N.Əliyevanın Yeni Azərbaycan Pariyasının (YAP) qurulmasındakı xidmətlərini xüsusi vurğulayıb, bu gün həmin partiyanın Qadınlar Şurasına uğurla rəhbərlik etdiyini qeyd edib. O, həmçinin BSU rektorunun universitetə rəhbərlik etdiyi qısa zamanda dünyanın bir çox ali məktəbləri ilə, xarici ölkələrin Azərbaycandakı diplomatik korpusları ilə yüksək əlaqələrə nail olduğunu, ölkəmizin dünyada tanınması istiqamətində davamlı işlər gördüyünü bildirib.



DTX rəsmisi BSU-nun Azərbaycan mədəniyyətinin, elminin, tarixinin, dilinin dünyada təbliği istiqamətində ardıcıl addımlar atdığını diqqətə çatdırıb və bunun dövlət orqanları tərəfindən yüksək qiymətləndirdiyini qeyd edib.

Sonra söz alan BSU rektoru Nurlana Əliyeva ona göstərilən diqqət və etimada görə dövlət başçısı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, dövlət təhlükəsizlik orqanlarının ayıq-sayıq əməkdaşlarına dərin təşəkkürünü bildirib. O, Ulu Öndərin müəyyən etdiyi siyasi kursun dövlətimizin başçısı İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, Yeni Azərbaycan Partiyasının bütün rəhbərliyi və üzvləri tərəfindən uğurla həyata keçirildiyini vurğulayıb, dövlətimizin nüfuzunun dünya arenasında gündəngünə yüksəldiyini qeyd edib. N.Əliyeva bundan sonrakı bütün həyatını Azərbaycan dövlətçiliyinin qüdrətlənməsinə, inkişafına sərf edəcəyini söyləyib.

**Zamin Məmmədov,**
***“İki sahil”***

# Son bir ilin uğurları növbəti

## "GÜCLÜ DÖVLƏT, YÜKSƏK RİFAH" TEZİSİNİ FƏALİYYƏTİNİN ƏSAS PRİNSİPİ KİMİ QƏBU




⇨ Əvvəli 5-ci səhifədə

Enerjidən asılılığın minimuma endirilməsi məqsədilə regionların potensial imkanlarından səmərəli istifadə olunması, bunun üçün 2004-2018-ci illər ərzində üç Dövlət Proqramının uğurlu icrası, ölkə Prezidenti İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiqlənməsi iqtisadiyyatın şaxələndirilməsi siyasətinin təzahürüdür. Təkcə ötən il bölgələrə 24 səfər etdiyini xatırladan möhtərəm Prezidentimiz bildirir ki, bu səfərlər zamanı həm işlərə nəzarət etmək üçün imkan yaranır, həm də yerlərdə vətəndaşlarla görüşərək onları narahat edən problemlərin həlli istiqamətində əlavə göstərişlər verilir. Rayonların sosial-iqtisadi durumunun yaxşılaşdırılması,həmçinin infrastruktur layihələri ilə əlaqədar biri-birindən önəmli sərəncamlar imzalanıb. Hər bir rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün əlavə Tədbirlər Planının təsdiqlənməsi və Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması da qeyri-neft sektorunun inkişafının prioritetliyindən xəbər verir.

Statistik rəqəmlər inkişafın aydın mənzərəsini yaradır. Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik və yoxsulluq səviyyəsi 5 faizə enib. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin formalaşdırıb. Təkcə ötən il 118 min yeni iş yeri yaradılıb. İş yerlərinin yaradılmasının daimi proses olmasını əsas tələb kimi qarşıya qoyan dövlətimizin başçısı İlham Əliyev bildirir ki, bəzi ölkələrdə əhali azalır, Azərbaycanda isə artır.

Son 15 ildə əhalimizin sayı 1,6 milyon nəfər artıb. Bu günlərdə 10 milyonuncu sakinimiz dünyaya gəldi. Biz artıq on milyonluq ölkəyik. Dövlətimizin başçısı İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 10 milyonuncu sakinin valideynləri ilə görüşüb, həmçinin bu münasibətlə Azərbaycan xalqını təbrik ediblər. Təbii ki, bu sevincimiz də Azərbaycanın iqtisadi imkanlarının günbəgün artmasına və bu fonda təkmil sosial siyasətə əsaslanır. Təkcə cari ilin arxada qalan aylarında dövlətimizin başçısı İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən fərman və sərəncamlarına diqqət yetirsək, vətəndaş amilinə nə qədər böyük dəyər verildiyini görə bilərik. İqtisadi göstəricilərin yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmasının vacibliyini bildirən cənab Prezident İlham Əliyev çıxışlarında daim bu tezisi səsləndirir ki, həyata keçirilən siyasətin mərkəzində vətəndaş amili dayanır. Əmək haqqı və pensiyaların, təqaüdlərin, qaçqın və məcburi köçkünlər, aztəminatlı ailələr üçün nəzərdə tutulan güzəşt və müavinətlərin artırılması, problemli kreditlərlə, çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı sərəncamların imzalanması ölkə vətəndaşlarının sosial müdafiəsinin təminatı istiqamətində aparılan siyasətin ən bariz nümunələridir. Bu il minimum əməkhaqqı 130 manatdan 180 manata, minimum pensiyaların məbləği 116 manatdan 160 manata çatdırıldı.

Dövlətimizin başçısı İlham Əliyevin şəhid ailələrinə, müharibə veteranlarına və əlillərə daim diqqət və qayğısı da davamlıdır. Ötən ilin prezident seçkilərindən sonra imzalanan ilk Fərman şəhid ailələrinə birdəfəlik 11 min manat məbləğində kompensasiyanın verilməsi ilə bağlı oldu. Növbəti Fərmanla şəhid ailələrinə verilən müavinət 242 manatdan 300 manata, Əfqanıstanda həlak olanların ailələri üçün nəzərdə tutulan müavinət 220 manatdan 300 manata çatdırıldı. Keçən il şəhid ailələrinə 626 mənzil verilmişdir. Bu il isə daha 800 şəhid ailəsi mənzillə təmin olunacaq. Məcburi köçkünlərlə bağlı sosial islahatlar da davamlılığı ilə diqqət çəkir. Bu günlərdə dövlətimizin başçısı İlham Əliyev Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün istifadəyə verilən yeni yaşayış kompleksinin açılışında iştirak etdi. Açılış mərasimində bu günə qədər bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlara diqqət yönəldilərək bildirilmişdir ki, bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 103-cü müasir yaşayış kompleksidir. Bu istiqamətdə atılan addımlardan bəhs edərkən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də xüsusi qeyd etməliyik. Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış



kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə verilib. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub.

Dövlətimizin başçısı İlham Əliyev atdığı hər addımı ilə ölkə vətəndaşının yanında olduğunu təsdiqləyir. Baş verən zəlzələlər, daşqınlar nəticəsində əhaliyə vurulan ziyanın dövlət tərəfindən ödənilməsi də təqdir olunan addımlar sırasındandır. Dövlətimizin başçısı İlham Əliyev bu il Şamaxıda, Ağsuda, İsmayıllıda baş verən zəlzələnin fəsadları ilə tanış oldu, əhaliyə lazımi kömək göstərilməsi üçün aidiyyəti qurumlara tapşırıqlarını verdi. Ölkə Prezidentinin dəfələrlə zəlzələ bölgəsində aparılan işlərin gedişi ilə maraqlanması ictimaiyyət tərəfindən böyük rəğbət hissi ilə qarşılandı. Eyni addımlar Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın zamanı da diqqəti çəkdi. Hər zaman ölkə vətəndaşının yanında olan cənab İlham Əliyev yanğından dərhal sonra müşavirə keçirərək, aidiyyəti qurumlara tapşırıqlar verdi, həmçinin "Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi haqqında" Sərəncam imzaladı.Sənəddə həmin ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi məqsədi ilə 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılması nəzərdə tutulub. Dövlətimizin başçısı İlham Əliyevin son fərman və sərəncamlarının, qərarlarının hər biri sosial inqilab kimi dəyərləndirilir. Ölkə Prezidentinin qeyd etdiyi kimi, iqtisadi uğurları artan, maliyyə imkanları möhkəmlənən ölkəmizdə əhalinin maddi rifah halının yüksəlməsi naminə hazırlanan "sosial paket"də daha ciddi islahatlar nəzərdə tutulur. Məhz bu addımlara söykənərək, belə bir əminlik ifadə olunur ki, 2019-cu il bütövlükdə ölkəmiz üçün uğurlu il olacaq.

Dünya Bankı tərəfindən açıqlanan "Doing Business 2019" hesabatında Azərbaycan Planetimizin 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Həmçinin qurumun açıqladığı "Doing Business 2018: İş yerlərinin yaradılması məqsədilə islahatlar" hesabatında da bildirilir ki, Azərbaycanda inamla reallaşdırılan islahatlar, böyük investisiya layihələri iqtisadiyyatın müxtəlif sahələrində dönüş yaradır. Şəffaflığın qorunması, idarəetmə sistemində təkmilləşmə beynəlxalq səviyyəli tədbirlərdə Azərbaycanın uğuru kimi dəyərləndirilir.

Yeni texnologiyaların inkişaf etdiyi müasir dövrümüzdə idarəetməni daha təkmil formada həyata keçirmək, qarşıya qoyulan hədəfə daha qısa zamanda nail olmaq inkaredilməzdir. Azərbaycan brendi kimi dünyaya səs salan "ASAN xidmət"in, ABAD-ın sırasına ötən il "DOST" da daxil oldu. Dövlətimizin başçısı İlham Əliyevin 8 fevral 2019-cu il tarixli "Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" Fərmanı da yeniliyin, təkmilləşmənin prioritetliyinin təsdiqidir. İctimai əhəmiyyətli məsələlərin araşdırılması və ictimai rəyin öyrənilməsi üçün əlavə vasitə yaratmaq, bu sahədə təhlil, tədqiqat və proqnozlaşdırma işinin səmərəliliyini artırmaq, sosial tədqiqatlarda müasir informasiya texnologiyalarından və qabaqcıl elmi-metodoloji yanaşmalardan istifadəni genişləndirmək məqsədi ilə yaradılan Sosial Tədqiqatlar Mərkəzi ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

Son bir ilin uğurları sırasında yer alan üçüncü peykimizin orbitə buraxılması da ölkəmizdə yeni texnologiyaların inkişafına nə qədər önəm verildiyini ortaya qoydu. Prezident İlham Əliyev "Azərspace 2" peykinin orbitə buraxılması münasibətilə xalqımıza təbrikində bildirmişdir ki, Azərbaycan bu gün beynəlxalq kosmik klubun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü, siyasətimizin məqsədyönlülüyünü göstərir. Bizim artıq 3 peykimiz var: "Azərspace-1" telekommunikasiya peyki, "Azersky" müşahidə peyki və "Azərspace-2".

Daxili siyasətin məntiqi davamı kimi dəyərləndirilən xarici siyasət uğurlarımız da biri-birini əvəzləməkdədir. Dünyanın yeni xarici siyasətinin müzakirəsi üçün Azərbaycanın

# i illər üçün böyük stimuldur

## UL EDƏN MÖHTƏRƏM PREZİDENTİMİZƏ MİLYONLARIN SEVGİSİ, DƏSTƏYİ ŞƏKSİZDİR

əsas məkan seçilməsi dövlətimizin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir. Ötən ay 55 ölkədən 500-dən çox nümayəndənin qatıldığı VII Qlobal Bakı Forumunda dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın xarici siyasətinin prioritetlərini və dəyişməz olan mövqeyimizi bir daha diqqətə çatdıraraq bildirmişdir ki, regionda, dünyada vəziyyət dəyişir və biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq: “Lakin bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O bizim milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir.” Uğurlarımıza söykənərək bu əminlik də ifadə olunmuşdur ki, biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq.”



Azərbaycanın yerləşdiyi coğrafi məkan önə çəkilərək, multikultural dəyərlərin inkişafına verdiyi töhfələr, multikulturalizm təcrübəsi təqdir edilir. “Azərbaycan müxtəlif ölkələrlə yaxın əməkdaşlıq imkanından istifadə edərək “Bakı prosesi”nə start verdi” söyləyən ölkə Prezidenti İlham Əliyev bildirir ki, ötən il “Bakı prosesi”nin 10-cu ildönümünü qeyd etdik. Bu, İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərini birgə toplantıya dəvət etməyimizlə başladı. Bu, çox uğurlu oldu. Növbəti il də belə toplantı keçirildi. BMT tərəfindən dəstəklənən bu format “Bakı prosesi” adlandırıldı. Bu, 100-dən çox ölkəni əhatə edən, İslam Əməkdaşlıq Təşkilatı ilə Avropa Şurası arasında qarşılıqlı əlaqə və müzakirələrin yeganə formatıdır. Möhtərəm Prezidentimiz İlham Əliyev multikulturalizmin Azərbaycanın dövlət siyasəti olduğunu önə çəkərək qeyd edir ki, ölkəmiz dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub: “Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyil gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq. Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur.”

Azərbaycanın son bir ildəki xarici siyasət uğurlarından bəhs edərkən dövlətimizin başçısı İlham Əliyevin Belçikaya səfəri zamanı Azərbaycanla Avropa İttifaqı arasında imzalanan “Tərəfdaşlığın prioritetləri” adlı sənədi, həmçinin Almaniya Kansleri Angela Merkelin Cənubi Qafqaz regionuna səfəri çərçivəsində ölkəmizdə olaraq reallıqlarımızı yüksək dəyərləndirməsini, ən əsası Azərbaycanı ənənələri olan ölkə kimi təqdir etməsini xüsusi qeyd etməliyik. Azərbaycanla Avropa İttifaqı, həmçinin quruma üzv olan ölkələrlə əməkdaşlığın yüksələn xətlə inkişafı xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ədalətli mövqeyin ortaya qoyulmasında əhəmiyyətli rol oynayır.

Son bir ilin uğurları sırasında regional əməkdaşlığa böyük töhfə kimi dəyərləndirilən Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Konvensiyanın imzalanmasını qeyd etməliyik. Sovetlər birliyinin dağılmasından sonra Xəzər regionunda yeni müstəqil dövlətlərin yaranmasından bu günə davam edən müzakirələrin, danışıqların müsbət sonluqla başa çatmasında Azərbaycanın rolu inkaredilməzdir. Son illərdə ölkəmizin yeni əməkdaşlıq formatlarının yaranmasında təşəbbüskar rolunu daha da artırması, ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafı bu kimi mühüm hadisələrdə əhəmiyyətli rola malikdir. Azərbaycan Xəzəryanı ölkələr arasında əməkdaşlığın hüquqi bazasının yaradılmasında fəal iştirakı ilə seçilib. “Bu gün Xəzərdə təhlükəsizlik və sabitlik bizim imzaladığımız Konvensiya ilə müəyyən olunur” söyləyən cənab Prezident İlham Əliyev qeyd etmişdir ki, təbii ki, bu, Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, iqtisadi, nəqliyyat xarakterli məsələlərin, xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına kömək edəcək məsələlərin həlli üçün geniş perspektivlər açır.

Uğurlarımız öz növbəsində yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə geniş yol açır. Münaqişənin həlli ilə bağlı möhkəm hüquqi baza mövcuddur. Beynəlxalq qurumların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənməklə yanaşı, erməni işğalçılarının ərazilərimizdən qeyd-şərtsiz çıxarılması da öz əksini tapıb. Bu mühüm məqamı da qeyd edək ki, Ermənistanın yeni baş naziri Nikol Paşinyan fəaliyyətə başladığı ilk gündən münaqişənin həlli ilə bağlı aparılan danışıqlar prosesində tərəf kimi separatçı rejimin iştirakının vacibliyini iddia edirdi. Lakin dövlətimizin sərt reaksiyası, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatı bu iddianın nə qədər yersiz, əsassız olduğunu Ermənistan tərəfinə çatdırdı. Ölkə Prezidentinin bu günlərdə Vyanada Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü də bu kimi məqamlara işıq saldı. Bu görüş danışıqlar formatının dəyişməzliyini nümayiş etdirdi. Avstriyanın görüşə ev sahibliyi isə diplomatik uğurumuza bələdçilik kimi dəyərləndirildi.

Diplomatik uğurlarımız, eyni zamanda, iqtisadi imkanlarımızın artması fonunda güclənən ordumuz münaqişənin tezliklə öz ədalətli həllini tapacağına əminliyi artırır. Bu günlərdə 3 ilini qeyd etdiyimiz 2016-cı ilin aprel, ötən ilin Naxçıvan qələbələri Azərbaycan Ordusunun gücünün nümayişidir. Həmçinin ötən il Azərbaycan Silahlı Qüvvələrinin, Bakı şəhərinin azad olunmasının 100 illiyinə həsr olunan paradlar bu təqdimatın davamı kimi dəyərləndirildi. Son bir ilin mühüm hadisələri sırasında Azərbaycanın ötən il ənənəvi olaraq keçirilən Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə ev sahibliyi etməsini də qeyd etməliyik. Dövlətimizin başçısı İlham Əliyev sərginin iştirakçılarına təbrikində bildirmişdir ki, artıq ənənəvi xarakter almış “ADEX” sərgisi beynəlxalq hərbi-texniki əməkdaşlığın inkişafı, ən müasir silah və texnologiyaların nümayiş etdirilməsi üçün mühüm tədbirə çevrilib. Ərazisinin 20 faizi işğal altında olan Azərbaycan müdafiə qabiliyyətinin artırılmasına və Silahlı Qüvvələrinin maddi-texniki təchizatının gücləndirilməsinə daim xüsusi önəm verir. Azərbaycan hərbi-texniki sahədə dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, güclü müdafiə sənayesi yaratmış və bu sərgi müdafiə sənayemizin əldə etdiyi nailiyyətlərin tanıdılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Prezident, Ali Baş Komandan İlham Əliyev aprel döyüşlərinin 3 illiyi münasibətilə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olarkən bu əminliyi ifadə etmişdir ki, Azərbaycan əsgəri istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır. Siyasi və döyüş meydanlarında qələbələrimiz bizi daha da ruhlandırır, daha da gücləndirir. Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşündə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bildirmişdir: “Mən hər zaman deyirəm ki, Azərbaycan çox zəngin ölkədir, sərvətləri, gözəl təbiəti var. Amma bizim ən böyük sərvətimiz Azərbaycan xalqıdır, Azərbaycan insanıdır. Doğrudan da Azərbaycan xalqı fəxr etməlidir ki, sizin kimi oğullar yetirib. Analarımız fəxr etməlidirlər ki, sizin kimi igid övladlar böyüdüblər. Belə xalqla, belə əsgərlərlə, zabitlərlə, belə qardaşlarla biz Qarabağı mütləq qaytaracağıq. Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq.”

Göründüyü kimi, son bir ilin uğurlarının miqyası geniş və növbəti illər üçün stimuldur. 2019-cu il ölkəmizdə “Nəsimi ili”, ötən il isə “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilmişdir. Bu kimi önəmli addımlar xalqımızın zəngin tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə, milli mənəvi dəyərlərimizə sahibliyinin təsdiqidir. Son bir ilin mühüm sənədləri sırasında “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərman da xüsusi yer tutur. Hər zaman qeyd olunduğu kimi, dilinə, tarixinə, milli mənəvi dəyərlərinə sahib çıxan xalq məğlubedilməzdir. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının bu il 30 iyun-10 iyul tarixlərində ölkəmizdə keçirilməsi ilə bağlı qərarın qəbul olunmasında da bu xüsusiyyətlərimiz mühüm yer tutub.

Bir ildə keçilən yola qısa baxış qarşıdakı illərin aydın mənzərəsini yaradır. Uğurlara əsas verən ən mühüm amil xalq-iqtidar birliyinin, həmrəyliyinin sarsılmazlığıdır. Yazıya dövlətimizin başçısı İlham Əliyevin ötən il andiçmə mərasimində söylədiyi “Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm” fikirləri ilə sonluq vermək istərdim. Xalq-iqtidar birliyinin sarsılmazlığı, əbədiliyi fonunda Azərbaycan yeni-yeni hədəflərə doğru inamla addımlayır. Bunu beynəlxalq səviyyəli sorğuların nəticələri də təsdiqləyir. Belə ki, Fransanın “Opinion Way” şirkətinin bu ilin martında Azərbaycanda keçirdiyi rəy sorğusu cənab İlham Əliyevin yenə də öz seçicilərinin yüksək etimadına malik olduğunu təsdiq etdi. Sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Respondentlərin fikrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Ölkədə etnik, dini və ictimai-siyasi zəmində sabitlik hökm sürüb, ictimaiyyətdə narahatlıq doğuran ciddi hallar müşahidə edilməyib. Bütün bunlar ölkədaxili vəziyyəti və Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirməyi təmin edən amillər olub. Prezident İlham Əliyevin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair “Opinion Way”in sualına respondentlərin bütövlükdə 75,6 faizi müsbət cavab verib.

Sorğunun nəticələri dövlətimizin başçısı İlham Əliyevin verdiyi hər bir vədini konkret əməldə təsdiqləməklə Azərbaycana qazandırdığı uğurların ümumi mənzərəsini yaradır. İdarəetmədə təkmilləşmə uğurların açarı kimi əsas yer tutur. Belə ki, ekspertlərin fikrinə görə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi struktur və kadr islahatları dövlət idarəetməsinin səmərəliliyinin artırılması, şəffaflaşdırılması, cəmiyyəti narahat edən mənfi halların aradan qaldırılması, peşəkar kadr bazasının formalaşdırılması və layiqli namizədlərin mühüm vəzifələrə irəli çəkilməsi kimi məsələlərin həlli istiqamətində ciddi addım olub. Təsadüfi deyil ki, son zamanlar keçirilən bütün sorğularda Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində görülən tədbirlər yüksək qiymətləndirilib. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, “Opinion Way”in sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir. Sorğunun nəticələri bu reallığı da təsdiqləyir ki, əgər bu gün yenidən prezident seçkiləri keçirilsə, cənab İlham Əliyev ölkə seçicilərinin mütləq çoxluğunun, təxminən 83-85 faizinin səsini qazana bilər.

Sözsüz ki, bu kiçik yazıda bir il ərzində görülmüş nəhəng işləri ifadə etmək çox çətindir. Sadaladığımız bu faktlardan onlarla, yüzlərlə daha da artığını qələmə almaq olar. Qeyd etdiklərimiz görülmüş işlərin çox kiçik bir hissəsidir. Bunları qeyd etməklə çalışdıq ki, son bir ildə əldə olunan uğurları qısaca olaraq oxucuların diqqətinə çatdıraq.



Qeyd edək ki, xalqa arxalanan, “güclü dövlət, yüksək rifah” tezisini fəaliyyətinin əsas prinsipi kimi qəbul edən möhtərəm Prezidentimizə milyonların sevgisi, dəstəyi şəksizdir.

✍ **Vüqar Rəhimzadə,**
*YAP Siyasi Şurasının üzvü,*
*“İki sahil” qəzetinin baş redaktoru,*
*Əməkdar jurnalist*

GƏNCLİYİMİZİN SƏDASI...

*Manaf Talıbov:*

# Vətən hər şeydən öndə gəlir



"İki sahil" qəzeti və internet televiziyası gələcəyimizin quruculan gənclərlə "Gəncliyimizin sədası" adlı yeni layihəyə start verir. Layihədə Azərbaycanın aparıcı universitetlərinin tələbələri olan, eləcə də ölkənin müxtəlif dövlət və özəl sektorunda çalışan qabaqcıl gənclərlə söhbətlər təqdim ediləcək.

İlk həmsöhbətimiz Bakı Dövlət Universitetinin (BDU) Kitabxanaçılıq-informasiya fakültəsinin magistrantı, sözügedən universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Manaf Talıbovdur. O, 1992-ci ildə Bakıda dünyaya gəlib. R.Orucov adına 109 saylı tam orta məktəbdə təhsil alıb. 2017-ci ildə Belarusun Minsk şəhərində və Türkiyənin Başkənt Universitetində keçirilən beynəlxalq konfranslarda BDU-nu təmsil edib. Dəfələrlə BDU-da "İlin ən yaxşı tələbəsi" adına layiq görülüb.

Müsahibimizlə gəncliyin maraq dairəsinə aid bir çox mövzularda fikir mübadiləsi apardıq. Manaf Talıbov bu gün Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsi kimi həyata keçirilən gənclər siyasətini xüsusilə vurğuladı: "Azərbaycan gəncliyi hazırda ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə fərqlənir. Bu gün ölkəmizin gəncləri humanitar, siyasi, iqtisadi, sosial, mədəni tədbirlərin yüksək səviyyədə gerçəkləşməsinə mühüm töhfələr verirlər. Hansı sahədə təhsil almasından və çalışmasından asılı olmayaraq dövlətimizin gənc nəslə yaratdığı geniş imkanlar nəticəsində gənclik bu gün cəmiyyətin aparıcı qüvvəsinə çevrilib, ölkənin inkişafında özünəməxsus çəkisi var. Bakı Dövlət Universitetində təhsil almağa başlayandan etibarən bu ali təhsil ocağının ictimai həyatında fəallıq göstərməyə, qabaqcıl, savadlı gənclərimizlə daha yaxından ünsiyyət qurmağa çalışıram. Universitet daxilində koordinasiyanın düzgün qurulması aktiv və öncül tələbələrin bir-birini daha yaxından tanımasına yardımçı olur.

Gələcəkdə də Azərbaycanın inkişafına xidmət edən hər hansı ictimai sferada arzularımı, potensialımı reallaşdırmağı düşünürəm. Hər kəs sevdiyi və daha yaxşı bacara bildiyi sahədə fəaliyyət göstərməlidir ki, ölkənin inkişafına öz töhfəsini verə bilsin. Biz gənclərin əsas vəzifəsi Azərbaycanın tərəqqisi üçün əlimizdən gələni əsirgəməmək, lazım gəldikdə xaricdə də respublikamızın adını şərəflə təmsil etməkdir".

Manaf Talıbov Azərbaycan gənclərində vətənpərvərlik duyğularının ön planda yer almasını qeyd etdi: "Hesab edirəm ki, vətənpərvərlik duyğusu, Vətəni canından artıq sevmək hissi demək olar ki, hər bir azərbaycanlı gəncin xarakterini formalaşdıran əsas cizgilərdən biridir. Bu gün torpağının 20 faizi işğal altında olan bir ölkənin vətəndaşları, xüsusən də gəncliyin bir nömrəli məsələsi Ali Baş Komandan əmr etdiyi təqdirdə, Vətəninin müdafiəsinə qalxmaqdır. Vətən hər şeydən öndə gəlir.

Mən ali təhsilimə hərbi xidmətimi başa vurduqdan sonra başladım. Dövlətimizin sərhədlərini qoruyurdum. Düşünürəm ki, ali təhsil almadan öncə hərbi xidmət keçmək dünyagörüşümdə, həyata baxışımda, Vətənə, dövlətçiliyə münasibətimdə əsaslı dönüş yaratdı . Bununla da sanki Vətənimizə, tariximizə, sərhədlərimizə, dövlətimizin gələcəyinə daha da məsuliyyətli və sahiblənici yanaşmaq tərzimi təkmilləşdirdi. Hərbi xidmət keçmək hər bir Azərbaycan kişisinin vəzifəsidir. Bu gün Azərbaycan gəncləri daha həvəslə, ürəklə əsgəri xidmət keçirlər, öz vəzifələrini yerinə yetirirlər. Yeri gəlmişkən deyim ki, hazırda Azərbaycan Silahlı Qüvvələrinin hərbi potensialına görə dünyanın 50 güclü ordusu sırasında yer alması dövlətimizin ordu quruculuğunu prioritet məsələ kimi diqqətdə saxlamasının nəticəsidir".

Həmsöhbətimiz mütaliənin gənclərdə təfəkkürün, dünyagörüşünün, nitq bazasının formalaşmasında, ümumiyyətlə, insanın mənəvi-ruhi inkişafında çox mühüm rol oynadığını diqqətə çatdırdı: "Həm kitablara bağlı olduğum üçün, həm də oxuduğum ixtisasa uyğun olaraq mütaliə etməyi sevirəm. Bu günlərdə oxuyub bitirdiyim son kitab "Əli və Nino" əsəridir. Roman məndə çox dərin təəssürat yaratdı. Burada bir çox mətləblərə aydınlıq gətirilib. "Əli və Nino"da sevgi, ayrılıq, vətənpərvərlik, dini və etnik müxtəliflik bədii boyalarla mükəmməl tərzdə işlənib. Bu əsərdə müxtəlif etnik mənsubiyyətə malik fərqli din nümayəndələrinin bir-birini sevib evlənməsi Azərbaycanda multikultural ənənələrin uzun zamandır mövcudluğunun göstəricisidir.

Romanda Əli xan Şirvanşirin Gəncənin bolşeviklərdən müdafiəsi zamanı döyüşlərində şəhid olması Azərbaycan kişisinin bütün zamanlarda qeyrətli bir vətənpərvər olmasından xəbər verir. Cümhuriyyətimizin var olduğu dövrdə Fransada səfir olmaqdan imtina edib öz Vətənində qalmağa üstünlük verən, gənc həyat yoldaşını və körpə qızını qoyub torpağını qorumaq üçün ölüm-qalım savaşına atılan Əli xan Şirvanşir mərd, qəhrəman Azərbaycan kişisinin simvoludur. Bu, bizim qürur dolu keçmişimizdir. Aprel döyüşlərində gözünü qırpmadan Vətənin müdafiəsi üçün körpə övladları olmasına baxmayaraq "Öncə Vətən" deyib torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə atılan qəhrəmanlarımız da Əli xan Şirvanşirin mənəvi nəvələri və xələfləridir. Vətənimiz gürur yeri olan belə oğulları ilə həmişə fəxr edir".

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

## "AzerTelecom" kibertəhlükəsizlik sahəsində qlobal şirkətlərin rəsmi tərəfdaşı oldu

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" dünya üzrə tanınmış və kibertəhlükəsizlik sahəsində ixtisaslaşmış şirkətlər olan "Trend Micro", "Symantec", "ESET", "Quest" və "One İdentity" şirkətlərinin rəsmi tərəfdaşı statusunu əldə edib.

Qeyd olunan tanınmış şirkətlərlə tərəfdaşlıq "AzerTelecom" şirkətinin korporativ müştərilərə kibertəhlükəsizliyin təmin edilməsi istiqamətində həllərin təqdim olunmasına şərait yaradır. Bu qlobal şirkətlərlə tərəfdaşlıq imkan verir ki, "AzerTelecom" onların təqdim etdiyi qabaqcıl kibertəhlükəsizlik həlləri ilə korporativ müştərilərin sistemlərini, şəbəkə və proqram təminatlarını müxtəlif rəqəmsal hücumlardan qorusun və beləliklə də müştərilərin biznesinin daha təhlükəsiz və etibarlı şəkildə fəaliyyətinə öz töhfəsini versin.

Hazırda dünya üzrə informasiya təhlkəsizliyi məsələlərinə mühüm diqqətin göstərilməsi fonunda "AzerTelecom" şirkəti kibertəhlükəsizliyin təmin edilməsi sahəsində müştərilərə keyfiyyətli həllərin və ən son yanaşmaların təqdim olunmasını öz fəaliyyətində əsas tutur. Belə ki, dövrümüzdə effektiv təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi xüsusilə çətinləşir, çünki hər gün müxtəlif cihaz və hücum platformaları daha da təkmilləşir. "AzerTelecom" tərəfindən təqdim olunan həllər şirkətlərə təhlükəsizlik sahəsində qarşılaşdıqları çağırışlara dövrün tələblərinə uyğun effektiv cavab verməyə imkan verir. Onu da qeyd edək ki, "AzerTelecom" şirkətinin Kommersiya departamentinin əməkdaşları kibertəhlükəsizlik sahəsi üzrə ixtisaslaşmış təlimlərdə də iştirak edərək müvafiq sertifikatlara yiyələniblər.

"AzerTelecom" şirkəti Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsidir və 2008-ci ildə təsis edilib. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu enerji və nəqliyyat mərkəzi statuslarına əlavə olaraq ölkənin regional rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. "Digital Hub" proqramının məqsədi ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün rəqəmsal mərkəzə çevirməkdir.

# Talassemiyasız həyat naminə





***SOCAR Azərbaycanın birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində talassemiyalı xəstələr üçün qanvermə təşəbbüsünə böyük ruh yüksəkliyi ilə qoşulub. Dövlət Neft Şirkəti bu layihənin həyata keçirilməsinin təşkilatçılarından olan Bahadır Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu ilə talassemiyalı uşaqlara yardım etmək üçün "Donor günü"nün keçirilməsi ilə bağlı səmərəli əməkdaşlıq əlaqələri qurub.***

Bugünlərdə "Azneft" İstehsalat Birliyinin Ə.Əmirov adına və "Abşeronneft" NQÇİ-lərdə qanvermə aksiyası keçirilib. Humanist kampaniyada Ə.Əmirov adına NQÇİ-nin rəisi Ramin Quliyev başda olmaqla idarənin rəhbər şəxsləri, əmək kollektivi qan verərək talassemiyadan əziyyət çəkən uşaqlara öz yardımlarını göstəriblər. Bildirilib ki, nəinki neftçilər, cəmiyyətin bütün təbəqələri bu xeyirxah aksiyada fəal iştirak etməlidirlər.

"Abşeronneft" NQÇİ-nin bir çox əməkdaşı da aksiyada fəal iştirak edib. NQÇİ-nin rəis müavini Əlağddin Mürsəlov qeyd edib ki, artıq ənənə halını alan bu humanist kampaniyada iştirak edən neftçilər hər zaman fəallıq nümayiş etdirirlər. Talassemiyadan əziyyət çəkən uşaqlara kömək etmək hər birimizin vətəndaşlıq borcudur.

Qeyd edilib ki, talassemiya insanların qarşılaşdığı ən ciddi problemlərdən biridir. Tibbi araşdırmalar nəticəsində məlum olub ki, Azərbaycanda da talassemiya daşıyıcıları var və bu da xəstə uşaqların doğulması ilə nəticələnir. Bu gün dünyanın bir çox dövlətində talassemiyalı uşaqlar cəmiyyətin tamhüquqlu üzvləridir.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**nasoslara olan tələbatı təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11021AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 14.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 236 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin təchizat 60 gün ərzində icra olunması tələb olunur

***V. Müsabiqə təklifinin təminatı:***
* İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. (ayrı zərfdə təqdim edilməlidir)
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:**
Qasımov Vüqar
Satınalmalar və Təchizat şöbəsi, mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 382 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 82
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Vuqar.Qasimov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 14.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**Veb kameraya olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11059AM-19) üzrə müvafiq tarixlərin dəyişdirilməsini elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 30.04.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsini 45 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
Tələb olunmur

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti, 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:**
Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**4AN-700 markalı aqreqat üçün materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26036-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 03.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 10.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
"Kompleks qazma işləri" tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 10.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Neft Kəmərləri İdarəsi

**Avadanlıq və mal-materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (13002-19) zərflərin açılışı tarixinin uzaldıldığını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.04.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 23.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 90 təqvim günü müddətinə yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Xocalı pr 28;

**Əlaqələndirici şəxs:**
İsmayılzadə Rövşən Yaşar oğlu.
Neft Kəmərləri İdarəsinin Satınalmalar şöbəsinin Böyük mühəndisi
+994125210000 (daxili 13035)
+994125210000 (daxili 13036) (faks)
+994508413035 (mobil)
Rovshan.Ismayilzade@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 23.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanda baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Neft Kəmərləri İdarəsinin Satınalmalar qrupu**

# *Deputat:* Başa düşməyəni başa salmaq mümkündür



Bu günlərdə Ermənistanın müdafiə naziri David Tonoyanın "yeni ərazilər uğrunda yeni müharibə" gündəmin ən çox müzakirə olunan məsələlərindən birinə çevrilib. Nəzərə çatdıraq ki, Azərbaycan və Ermənistan liderlərinin Vyana görüşündən dərhal sonra Ermənistan müdafiə naziri David Tonoyan Nyu-Yorkda erməni icması qarşısında çıxış edərkən İrəvanın Azərbaycana heç bir torpaq qaytarmayacağını bildirib. O, həmçinin "sülh naminə ərazi" formulu əvəzinə "yeni ərazilər uğrunda yeni müharibə" prinsipinə üstünlük verəcəklərini, hücum bölmələrinin sayını artıracaqlarını iddia edib. Ermənistanın baş naziri Nikol Paşinyan da D.Tonoyanın bu bəyanatını dəstəkləyib.

**Milli Məclisin deputatı Hikmət Məmmədov** sözügedən məsələ ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, Paşinyanın Madrid prinsiplərini başa düşmədiyini deməsi əslində onu başa düşmək istəmədiyi kimi qiymətləndirilməlidir: "Başa düşməyəni başa salmaq mümkündür, ancaq başa düşmək istəməyəni başa salmaq çox çətin olur. Bunun bircə yolu var. O da Azərbaycan xalqının məşhur bir ifadəsində öz əksini tapıb ki, başa düşməyəni necə başa salırlar. Əslində Aprel döyüşlərində Azərbaycan Ordusu bu zərb-məsəli tətbiq etdi. Serj Sarkisyan yalnız bundan sonra məsələnin nə yerdə olduğunu başa düşərək getməli oldu. İndi görünür Paşinyanı da bu cür başa salmağın vaxtı çatıb. İkinci "aprel" həmləsi olsa, Paşinyan dərhal Madrid prinsiplərini də, onun nədən ibarət olduğunu da və necə dəqiq olduğunu da başa düşəcək. Bu gerçəkliyi bildiyi üçün Tonoyan qısa müddət sonra "format dəyişmək" həvəsindən düşdü və sülh istədiyini bildirdi. Hətta arzu etdi ki, Azərbaycan hərbi-siyasi elitası da sülhə hazırlaşsın. Erməni nazir unudur ki, sülh ilk növbədə işğalçı Ermənistan qoşunlarının, D.Tonoyanın rəhbərlik etdiyi nazirliyin tərkibinin Azərbaycan ərazisindən çıxarılmasıdır. O unudur ki, Ermənistan silahlı qüvvələri Xocalı soyqırımını törədib. O unudur ki, bu gün regionda təhlükəsizliyə əsas mane olan faktor məhz Ermənistan dövlətidir. Bu baxımdan sülhün bərqərar olması daha çox işğalçı Ermənistandan asılıdır. Torpaqlarımızdan çıxıb getsinlər ki, sülh olsun. Əks təqdirdə anlaşmağa çalışan soyadlar dəyişə bilər. Yəni artıq Məmmədyarovla deyil, Həsənovla anlaşmalı olarlar ki, bu da ermənilər üçün heç də arzuolunan deyil".

✍ **Mənsumə Babayeva**
***"İki sahil"***

# "Azərsu" hazırlıq işlərini davam etdirir




***26-28 aprel 2019-cu il tarixlərində Bakı şəhərində keçiriləcək növbəti Formula 1 yarışları ilə əlaqədar xidmət təşkilatı kimi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) üzərinə mühüm vəzifələr düşür. Ölkəmizə xaricdən xeyli sayda qonağın gələcəyi nəzərə alınaraq idman və turizm obyektlərinin su və kanalizasiya sistemlərinin fəaliyyətinin dayanıqlığını təmin etmək istiqamətində işlər davam etdirilir.***

Tədbirə yüksək səviyyədə hazırlaşmaq və qarşıya çıxa biləcək problemlərin operativ həlli məqsədi ilə "Azərsu" ASC-də komissiya yaradılıb, Tədbirlər Planı təsdiq edilib.

Tədbirlər Planına uyğun olaraq yarışların keçiriləcəyi ərazilərdə içməli su və kanalizasiya infrastrukturlarının normal fəaliyyətini təmin etmək və yarana biləcək qəza hallarının operativ surətdə aradan qaldırılması məqsədi ilə monitorinq və qiymətləndirmə işləri aparılıb. Yarışların keçiriləcəyi yerlərdə içməli su xətləri üzərində siyirtmələrin istismar vəziyyəti yoxlanılıb. Mexaniki vasitələrlə və xüsusi təmizləyici maşınlarla 8 km-dək kanalizasiya xətləri, 600-dək kanalizasiya quyusu və barmaqlıq təmizlənib.

Yarışların keçiriləcəyi günlərdə yarana biləcək qəza hallarının operativ aradan qaldırılması məqsədi ilə xüsusi briqadalar yaradılıb və dislokasiya yerləri müəyyən edilib. Qəza briqadalarının maşın və avadanlıqlarla, mal-materialla təmin olunması üçün zəruri tədbirlər görülüb.

Qəzaların aradan qaldırılması üzrə nümunəvi qəza-bərpa briqadaları üçün təlimlər keçirilib. Təlimlərdə "Azərsu" ASC-nin "Bakı Sukanal", Səbail, Yasamal və Nəsimi sukanal idarələrinin 80-dək əməkdaşı iştirak edib. Təlimlərdə qəza hallarının operativ qaldırılması, əməyin təhlükəsizliyi və digər məsələlər barədə məlumatlar verilib. Təlimə cəlb olunan işçilər nəzəri biliklərlə yanaşı, praktiki məşqlərdə də iştirak ediblər.

Qeyd edək ki, yarışlarla əlaqədar idman və turizm obyektlərinin su təchizatı və kanalizasiya sistemlərinin fəaliyyətinə də nəzarət gücləndirilmişdir. Bu məqsədlə "Azərsu" ASC-nin mütəxəssisləri tərəfindən mütəmadi olaraq obyektlərin su təchizatı və kanalizasiya xətlərinə baxış keçirilir, aşkarlanmış nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində tədbirlər görülür.

✍ **Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Yapışqan-gel milyonlarla insanı korluqdan xilas edəcək



Milyonlarla insan korluqdan və ya göz əməliyyatlarından xilas ola bilər. Belə ki, Bostondakı Harvard tibb məktəbinin alimləri tərəfindən hazırlanmış yapışqan-gel görməni bərpa etməyə kömək edəcək. Tədqiqatçılar hesab edirlər ki, gələcəkdə bu yapışqanı göz damcısına çevirməklə kornea transplantasiyası ehtiyacını aradan qaldıracaqlar.

Qeyd edək ki, korneanın səthi çox incədir, travma və infeksiyadan, hətta bəzən linza və dırnaqlardan zədələnə bilir.

Göz səthində göz infeksiyası və ya yaralanma, görmənin bulanıqlaşmasına və ya tamamilə itkisinə səbəb ola bilər.

Kornea nəqli hazırda çox çətindir, çünki donorların kəskin çatışmazlığı var. Hər il dünyada korneanın zədələnməsinə görə 1,5 milyondan artıq insan korluqla üz-üzə qalır.

"Gelcore" adını almış bu yeni məhsulun təcrübi sınaqlar zamanı təkcə kornea zədələrini bərpa etməsi deyil, həmçinin yeni hüceyrələrin yaranmasını sürətləndirdiyi üzə çıxıb. Yapışqan jelatin və göy işıqda aktivləşən molekuldan ibarətdir. Korneanın əsas funksiyası isə işığı mərkəzləşdirməkdən ibarətdir. Yapışqan rəngsiz və maye halında olsa da, işığın təsirindən onun tərkibi korneanın təbii strukturuna bənzər struktura çevrilir.

"Ümid edirik ki, bu biomaterial kornea zədələnməsinin müalicəsində əhəmiyyətli bir boşluğu dolduracaq", -deyə professor Rza Dana bildirib. Yapışqan istehsalçıları bir il ərzində məhsulu satışa çıxarmağı planlaşdırırlar.

*Aprel döyüşlərinin iştirakçısı:*

# Qarabağın hər kəndində, hər şəhərində bayrağımız dalğalanacaq



"Aprel döyüşləri ordumuzun döyüş qabiliyyətinə, təchizatına görə qüdrətli ordular sırasında olduğunu bir daha göstərdi. Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına qarşı uğurlu əks-hücum əməliyyatı həyata keçirən Azərbaycan Ordusu çox önəmli strateji yüksəklikləri işğalçılardan azad etdi, minlərlə hektar ərazini nəzarət altına aldı. Bu qələbə daha böyük uğurlar qazanacağımıza əminliyimizi artırdı. Keçən ilin mayında Azərbaycan Ordusunun Naxçıvan istiqamətində həyata keçirdiyi "Günnüt əməliyyatı" dediklərimə əyani sübutdur". Bu fikirləri "İki sahil" qəzetinə açıqlamasında Aprel döyüşlərinin iştirakçısı, ehtiyatda olan kapitan, hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində çalışan Əliağa Zeynalov söylədi.

Bildirdi ki, Aprel döyüşlərindəki qələbədə onun da əməyi olub: "Talış kəndi yüksəkliyində, Talış kəndində olan vacib obyektlər şəxsən mənim verdiyim koordinatlar vasitəsilə artilleriyadan açılan dəqiq yaylım atəşləri ilə məhv edildi. Onu da deyim ki, düşmən bizim qarşımıza çıxmağa özündə cəsarət tapmadı. Yəni öz postlarını tərk edərək qaçdı. Bu da düşmənin təkcə zəif yox, mən deyərdim ki, həm də yazıq vəziyyətdə olduğunu göstərdi. Əgər yadınızdadırsa, ermənilər özlərinin "Ohanyan xətti" ilə fəxr edirdilər. Amma biz onların "keçilməz" adlandırdıqları həmin xətti bir neçə dəqiqə ərzində keçdik. Bununla da ermənilərin öz ordusu haqqında uydurduqları mif darmadağın edildi. Həmin döyüşlərdə mən də yaralandım".

Müsahibimiz daha sonra vurğuladı ki, bu döyüşlər indiyədək 20 min nəfərdən çox şəhid verən xalqımızın torpaqları işğaldan azad etmək üçün yeni qurbanlara hazır olduğunu bir daha nümayiş etdirdi: "Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aprel döyüşlərinin dövlətimizin və Milli Ordumuzun gücünü, xalqımızın birliyini və vətənpərvərliyini nümayiş etdirdiyini dəfələrlə qeyd edib.

Həmin döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarımızın ailələri, yaralanmış əsgər və zabitlərimiz dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Belə ki, Aprel döyüşlərində fərqlənənlərin qəhrəmanlıqları diqqətdən kənarda qalmayıb, onlar layiqincə qiymətləndiriliblər. Azərbaycan Ordusunun Aprel döyüşlərində qazandığı qələbə münasibətilə Horadiz-Cəbrayıl avtomobil yolunun kənarında "Aprel şəhidlərinə xatirə" abidəsi ucaldılıb. Barələrində kitablar yazılıb, sənədli filmlər çəkilib. Qeyd edim ki, dünyada çox az dövlət tapılar ki, müharibə iştirakçılarına, sağlamlıqlarını itirmiş hərbi qulluqçulara, şəhid ailələrinə bizim ölkəmizdəki kimi qayğı göstərilsin, onlara mənzil və minik avtomobilləri hədiyyə olunsun. Aprel döyüşlərində şəhid olanların ailələrinin, müharibə əlillərinin digər sahələrdə də qayğı ilə təmin olunması üçün müvafiq işlər aparılır.

Bu məqamda göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gördüyü işlərdən də söz açmaq yerinə düşərdi. Birinci vitse-prezident Mehriban Əliyeva aprelin 3-də yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşdə onların vətənpərvərliyini, qəhrəmanlığını, şücaətini bir daha yüksək dəyərləndirib, hər vaxt bu insanlara dəstək olacağını, qazilərin sağlamlığının bərpası və normal həyata qayıtmaları üçün bütün lazımi addımların bundan sonra da atılacağını vurğulayıb: "Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var". Qeyd edək ki, ötən 3 il ərzində 100-dən çox zabit və əsgər yüksək texnologiyalı, hər cür hərəkət qabiliyyətinə malik protezlərlə təmin edilib, qoltuq ağaclarından xilas olublar. Bir sözlə, həmin döyüşlərdə qolunu, ayağını, gözünü itirən də növbəti döyüşlərə hazırdırlar.

Şəxsən mən ehtiyatda olan bir zabit kimi deyirəm: "Fəxr edirəm ki, milli dövlətçiliyimizə xidmət edən belə Prezidentimiz və Birinci vitse-prezidentimiz var. Məhz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində Qarabağın hər kəndində, hər şəhərində bayrağımız dalğalanacaq. Azərbaycan Ordusu düşmənin "yeni ərazilər uğrunda yeni müharibə" arzusunu da ürəyində qoyacaq".

✍ **Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Yeni sürücülük vəsiqələrinin hansı özəllikləri var?



**Xəbər verildiyi kimi, aprelin 2-də "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilib. Bu barədə qərarı Baş nazir Novruz Məmmədov təsdiqləyib. Qərara əsasən, "Sürücülük vəsiqəsinin təsviri", "Sürücülük vəsiqəsinin spesifikasiyası" və "Sürücülük vəsiqəsinin nümunəsi" təsdiq edilib.**

***Bəs yeni sürücülük vəsiqələrinin üstün cəhətləri nədir?***

Nəqliyyat eksperti Ərşad Hüseynov sözügedən məsələ ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki, bu ilin yanvarın 1-dən "Yol hərəkəti haqqında" Qanunda qüvvəyə minən dəyişikliklərə uyğun olaraq sürücülük vəsiqəsinin yeni nümunəsi artıq təsdiq olunub: "Hazırda istifadə etdiyimiz vəsiqələrdəki 2 qüsur yeni nümunədə aradan qaldırılacaq. Qüsurlardan biri vəsiqələrimizdə latın əlifbasında olmayan hərflərlə (ə, ö, ü, ş, ç, ğ, ı) bağlı idi. Belə ki, latın əlifbasında olmayan bu hərflər yeni vəsiqələrdə latın hərfləri ilə parelel yazılmalıdır. Bu hərflərdən ibarət ad, soyad, ata adı artıq latın əlifbası ilə də veriləcək. İkincisi qüsur isə, məlumatların qeydolunma ardıcıllığı ilə bağlı idi. Yeni nümunədə bütün bunlar aradan qalxacaq. Vəsiqələrin yeni forması, rəngi də fərqlidir. Beləliklə, bu yenilik nəticəsində 1968-ci ilin noyabrında qəbul edilmiş "Beynəlxalq Yol Hərəkəti haqqında" Vyana Konvensiyasına uyğun olaraq, sürücülük vəsiqələri üçün müəyyənləşdirilmiş tələblərə tam uyğun olacaq. Köhnə vəsiqələrdəki bu nöqsanları bəhanə edib, bizim vəsiqələri tanımayan ölkələr var idi. Artıq bu problem də öz həllini tapdı. "

***Bəs köhnə vəsiqələrin yenisi ilə əvəzlənməsi məcburidirmi?***

Həmsöhbətimiz, bu suala aydınlıq gətirdi: "Hazırda istifadə etdiyimiz və etibarlılıq müddəti bitməyən vəsiqələr öz istifadə qüvvəsində qalacaq. Yeni vəsiqələrin qüvvəyə minməsi mövcud vəsiqələrin hamısının dəyişdirilməsini məcbur etmir. Qanuna əsasən, yeni nümunə qüvvəyə mindikdən sonra verilən və dəyişdirilən bütün vəsiqələr yeni olacaq. İstifadə müddəti bitməyən indiki vəsiqələr isə son tarixinədək etibarlıdır və onları dəyişmək məcburi deyil. Amma kimsə istəsə, etibarlılıq müddəti bitməyən vəsiqələri də yenisinə dəyişə bilər. Vəsiqələrin dəyişdirilməsi və ya yeni vəsiqə almaq üçün rüsum isə 25 manatdır."

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı isə bildirdi ki, yeni vəsiqələrin verilməsi üçün təxminən iki ay vaxt lazımdır: "Əvvəlki vəsiqələrdə olmayan bir neçə məqamlara aydınlıq gətirmək istəyirəm. Belə ki, yeni sürücülük vəsiqələrində xüsusi çiplər yerləşdirilib. Çiplərdə zəruri informasiyalar var. Çiplərə faktiki olaraq kodlaşdırılmış informasiya daxildir. Sürücülük vəsiqəsinin sahibi barədə informasiya çipə yerləşdirilir. Bu vəsiqələrdə, həmçinin fərdi identifikasiya nömrəsi olacaq. "Elektron Hökumət" portalı bir çox sahələrdə özünün effektiv işlədiyini göstərir. Nəticə etibarilə həmin elektron portala daxil olmaq üçün əksər hallarda FİN-dən istifadə edirik. Sürücülük vəsiqəsinin identifikasiya nömrəsi də daxil ediləcək ki, bu da yeniliklərdən biridir. Ən əsas yeniliklərdən biri də odur ki, kənd təsərrüfatı nəqliyyatı vasitələrinin sürücülərinin onları idarə etmək üçün özlərinin ayrıca vəsiqələri var. Həmin nəqliyyat vasitələri kənd təsərrüfatı texnikası adlanırdı. Ona görə də onların sürücülük vəsiqəsi bilavasitə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən verilir. Yeni qərarda əks olunan müddəa ondan ibarətdir ki, Nazirlər Kabineti Kənd Təsərrüfatı Nazirliyinə tapşırıq verib ki, Daxili İşlər Nazirliyi ilə razılaşdırmaqla bu kateqoriya üçün nəzərdə tutulan mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqələrini təsdiq etsin. Daha bir yenilik bilavasitə sürücülük vəsiqəsi sahibinin hansı kateqoriyaya aid sürücü olduğunu göstərən elementdir. Əvvəllər kvadrisikllər, trisikllari idarə etmə hüququ verən vəsiqə yox idi. Amma indi yeni vəsiqəyə A1, B1, C1 alt kateqoriyaları daxil edilməklə bu nəqliyyat vasitələrini idarəetmə hüququ verir.

Xüsusi qeydlər bölməsi yaradılır ki, sürücünün imtahan zamanı seçdiyi nəqliyyat vasitəsinin növü, yəni (avtomat və ya mexaniki transmisiyya) olması qeyd olunur. Məsələn, sürücü imtahan zamanı avtomat ötürücü qutusu olan nəqliyyat vasitəsi seçibsə, onda sürücü həmin nəqliyyat vasitəsini də idarə etməlidir. Başqa nəqliyyat vasitəsini idarə etmək hüququ yoxdur. Əsas gözəçarpan elementlər budur. Əgər sürücü eynəkli şəkil çəkdirib, vəsiqədə də eynəkli sözü qeyd olunursa, onda həmin sürücü sükan arxasında hər zaman eynəkdən istifadə etməlidir. Eynəksiz vəziyyətdə aşkarlanırsa, deməli, o, qaydanı pozur. Düzdür, buna görə cərimə yazılmır. Amma yol-hərəkət qaydalarına zidd davranışdır. Yəni yeni vəsiqələrdə bu dəyişikliklər nəzərdə tutulur. Yenilənmədən sonra isə artıq modern, qüsursuz, beynəlxalq səviyyələrlə uzlaşan vəsiqələrin sahibi ola biləcəksiniz. "

Sonda sükan arxasında əyləşən sürücülərə yol-hərəkət qaydalarına riayət etməyi, nizam-intizamı gözləməyi, ehtiyatlı və diqqətli olmağı arzulayırıq. Unutmayaq ki, vəsiqənin varlığı qədər, nəqliyyat vasitəsini idarəetmə qabiliyyətinin də olması zəruri şərtlərdən biridir.

**Səhifəni hazırladı: Yaqut Ağaşahqızı, *"İki sahil"***

# Müəllim adının müqəddəsliyini və dəyərini unutmaq olarmı?

*Ey hörmətli müəllim,*
*Hər könüldə yerin var.*
*Hər kənddə, hər şəhərdə*
*Sənin meyvələrin var.*



Ünlü şairimiz Bəxtiyar Vahabzadənin misralarında yer alan, özündə dərin məna, min bir hikmət təcəssüm etdirən bu misralar müəllim adının nə qədər müqəddəs, hikmətli və dəyərli olduğunu necə gözəl və layiqli təcəssüm etdirir. Valideynlərimizdən sonra bizi himayə edən, qoruyan müəllimlərin borcunu ödəmək isə mümkün deyil.

Son günlər geniş müzakirə olunan mövzulardan biri də "Pedaqoji fəaliyyətlə məşğulolma qaydaları" adlı layihədir. Bu layihə "Təhsil haqqında" Qanuna edilən dəyişikliyə əsasən hazırlanıb. Qaydalar təsdiq ediləcəyi təqdirdə, pedaqoji təhsili olmayan şəxslərin də ümumtəhsil müəssisələrində pedaqoji prosesə cəlb olunması məsələsinə müsbət yanaşılacaq.

Qeyd edək ki, hələ təsdiq olunmayan bu qaydalar hazırda yalnız layihə formasındadır. Layihədə qoyulan əsas şərtlərdən biri də müəllim olmaq istəyən şəxslərin "Müəllimlərin işə qəbulu" imtahanı verməsidir.

Ölkə vətəndaşları, xüsusilə də bu sahədə çalışan insanlar, həmçinin şagirdlər və tələbələr bu layihəni heç də birmənalı qarşılamayıblar.

**"İki sahil" bu dəyişiklik haqqında ekspertlərin və tələbələrin fikrini öyrəndi:**

**Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasının professoru, filologiya elmləri doktoru, Əməkdar jurnalist Nəsir Əhmədli "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki,** "Hər hansı şəxsin yalnız "müəllimlərin işə qəbulu üzrə" imtahandan keçərək, pedaqoji fəaliyyət göstərməsini peşəkarlıq baxımından heç cür doğru hesab etmirəm: " Müəllim işləmək istəyən şəxsin mütləq pedaqoji təhsili olmalıdır. Bundan sonra isə təkmilləşmələrə, ixtisasını yüksəltməyə, əlavə dil öyrənməyə, müxtəlif kurslara cəlb oluna bilərlər. Məsələn, texniki fənləri bitirən insanlara psixologiya və pedaqogika kimi fənlər tədris olunmadığı üçün müəllim işinin dərinliyinə vara bilmirlər. Başqa bir tərəfdən, müəllimlər bizim gələcəyimiz olan uşaqların, gənclərin təlim-tədrisində bir nömrəli şəxsiyyətlərdir. Onların savadlılığı, peşəkarlığı, düzgün fəaliyyəti bilavasitə bizim gələcəyimizə təsir göstərir. "Gələcəyimizi əsl müəllim profilinə sahib olmayan birinə necə əmanət etmək olar" sualı həqiqətən məni həm çox düşündürür, həm də çox narahat edir."

Professor, həmçinin onu da əlavə etdi ki, bu layihəyə münasibəti müsbət deyil: "Fikrimcə peşəkarlıq, uğur, sağlam və savadlı gənclik istəyirikşə, o zaman nəinki müəllimlik, bütün sahələrdə hər kəs öz sahəsi üzrə çalışmalıdır. Peşə təhsili, sevgisi, qayğısı, təcrübəsi olmalıdır. İşinin peşəkar olmaq üçün bunlar başlıca şərtlərdir. Ona görə də buna bütün sahələrdə daim əməl olunmalıdır."

Təhsil üzrə ekspert Nadir İsrafilov isə bu layihənin təsdiq olunmasını heç də absurd hesab etmir: "Təkcə onu deyə bilərəm ki, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinin 21-ci "Pedaqoji fəaliyyətlə məşğul olma" maddəsində nəzərdə tutulmuşdu ki, "Ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə müvafiq ixtisas üzrə pedaqoji təhsilə malik olanlar məşğul olurlar." Eyni zamanda, o da qeyd olunur ki, "Müvafiq ixtisas üzrə pedaqoji təhsili olmayan ali təhsilli mütəxəssislər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul ola bilərlər." "Pedaqoji fəaliyyətlə məşğul olma" dedikdə, ilk növbədə ağla gələn müəllimlik fəaliyyətidir. Buna görə də çoxları belə nəticə çıxarır ki, hazırda xeyli ixtisaslı müəllimin işsiz olduğu halda, pedaqoji təhsili olmayan şəxslərin də ümumtəhsil müəssisələrində pedaqoji prosesə cəlb olunmasına nə ehtiyac var? Bu baxımdan "Qaydalar"ın tətbiqini absurd hesab edənlərə yanaşı, bunu bugünkü reallıqlarla, beynəlxalq təcrübə ilə, inzibati idarəetmə, müxtəlif kurs və təlimlərlə, biznes və kommersiya məqamları və s. ilə əlaqələndirənlər də var." Görünür, sahibkarlıq və innovasiya fəaliyyətini təmin etmək üçün ümumi təhsil müəssisəsinin nəzdində müvafiq istehsalat və xidmət sahələrinin yaradıla bilməsi - ümumi təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədilə nizamnaməsində nəzərdə tutulmuş qaydada profilinə və fəaliyyət istiqamətlərinə uyğun olaraq və təhsilin prioritetliyini əsas götürməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilməsi ilə əlaqədar qanunvericilikdə edilən bu və digər dəyişikliklərlə bağlı növbəti qaydaların da hazırlanacağı o qədər də uzaq deyil. Bununla belə sözügedən layihənin nə vaxt təsdiq olunub-olunmayacağından, kimin necə düşünüb- düşünməməsindən asılı olmayaraq, məsələ əgər gündəmə gətirilibsə, buna kiçik də olsa, konkret rəsmi aydınlıq gətirilməlidir ki, hər hansı bir qaranlıq məqam qalmasın."

Təhsil üzrə ekspert Kamran Əsədov qəzetimizə açıqlamasında bildirdi ki, müəllimlik sənətinin ucalığı zirvələrdədir, onu oradan endirmək olmaz. "Müəllim təkcə diplomu olanlar olmur. Müəllimlərə təhsil aldığı müddətdə, müvafiq bacarıqlar öyrədilir, amma kurslar, seminarlar, təlimlər müəllimə şagird psixologiyası, pedaqoji yanaşmalar, məktəb-valideyn münasibətlərini, təlim-tərbiyə haqqında heç nə öyrətmir. Ona görə də Qərbdə yerindən duran müəllim olduğu üçün təhsildə tərbiyə elementi yoxdur və məktəblər aqressiv şagirdlərlə doludur. Bunun səbəblərinin əsasında şagirdlər qədər, müəllimlər də mühüm rol oynayır. Hər iki qrup öz vəzifə və səlahiyyətlərini yetərincə dərk etməlidirlər. Öz fəaliyyətlərini buna uyğun qurmalıdırlar. Beləliklə də, uğurlu nəticə almaq olar. Təlim-tədris sistemindəki boşluqlar doldurulmalıdır. Buna səbəb olacaq ən xırda detallar belə aradan qalxmalıdır. Bu cür məqamlara göz yumduqca onlar daha da böyüyür. Gələcəkdə yarana biləcək fəsadlar da qaçılmaz olur."

Həmsöhbətimiz qeyd etdi ki, təkmilləşdirmə müəssisələrinin də birincilik verdiyi kurikulum üzrə tədris bacarıqlarının inkişafı olduğu üçün müasir şagirdlə necə dil tapmaq, ona necə yanaşmaqla bağlı bacarıqlar aşılanmır. Ona görə də müəllim imici zəifləyir, pis müəllim obrazı formalaşır və müəllim-məktəb mövzusu gündəmdən düşmür. 2050-ci ildən dünyanı süni zəka idarə edəcək. Ona görə də bizə diplomlu gələcəkdən daha çox, insani keyfiyyətlərə malik gələcək lazımdır. Belə gələcəyi də yalnız pedaqoji universitetlərdə hərtərəfli təhsil almış mütəxəssislər yetişdirə bilər."

**Bakı Avropa Liseyinin 8-ci sinif şagirdi Günel Qurbanlı isə bildirdi ki,** keyfiyyətli təhsil üçün peşəkar tədris lazımdır: "Bunun üçün də şagirdlərin qarşısına savadlı müəllimlər çıxmalıdır. Mənim üçün bilik çox önəmlidir. Özümdən tələb etdiyim qədər, müəllimlərindən də istəyirəm. Buna görə də qarşımda suallarıma çevik və düzgün cavab verən müəllim görmək istəyirəm. Müəllimin kifayət qədər peşəkar olmamasının mənfi təsiri ilk növbədə şagirdlərə olur. İstər ümumi təhsil, istərsə də ali təhsil zamanı müəllimlərin savadlılığı mənim üçün ən əsas şərtdir."

Bakı Dövlət Universitetinin tələbəsi Nərgiz Hüseynova isə qeyd etdi ki, ümumiyyətlə, bu layihənin irəli sürülməsini belə doğru hesab etmirəm. "Hər birimizin xəyalında uşaqlıqdan bəri mənimsədiyimiz bir müəllim portreti var. O portretdəki müəllimlə, bu layihənin qəbulundan sonra müəllimlər arasında çox ciddi fərqlər yaranacağına əminəm. Mən özüm də bakalavr təhsilini bitirdikdən sonra magistr təhsili alacağam. Çünki mən əsl müəllim olmaq istəyirəm. Bunun üçün də lazım olan, peşəkarlığa gedən bütün maneələri dəf etmək istəyirəm. Düşünürəm ki, təkcə mən yox, müəllim olmaq istəyən hər kəs bu prinsipləri əsas tutmalıdır. Hətta bu layihə təsdiq olunsa belə, özünə, savadına, təcrübəsinə, potensialına güvənməyən şəxslər müəllim işləməsinlər. "Gənclər bizim gələcəyimizdir" deyirik. Gələcəyimizə qara kölgə kimi düşəcək bu təşəbbüsləri reallaşdırmayaq."

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Ekologiya İdarəsi

**qazma tullantılarının daşınması üçün konteynerlərin yükləmə və boşaldılması üçün polad burazları təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (21001-19) üzrə müvafiq tarixlərin dəyişdirilməsini elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 22.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 24.04.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 59 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı ( nəzərdə tutulmur):***
Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin __ faizi məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.
Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 45 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1029______________________(indeks nömrəsi);
Bakı şəhəri______________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu______________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121_______________(yerləşdiyi küçə və ya prospekt);
"SOCAR TOWER" 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).
**Əlaqələndirici şəxs:**
Mirzəyev İsmayıl ___________________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 ____(əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 ________(əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az _(əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 24.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**



## "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı

**"Ümid" yatağı 1 saylı Stasionar Dəniz Özülündə yerləşən 18 saylı quyunun qazılmasına hazırlıqla əlaqədər 2 ədəd "AKSA KTA-38 G-2A APD 1030" Dizel Generatorların satınalınması məqsədi ilə Açıq Müsabiqə (DG-002/2019) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Texniki müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)

Müsabiqədə iştirak haqqında imzalanmış və möhürlənmiş müraciət ən geci 6 may 2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Texniki təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi 1 (bir) əsli və 2 (iki) surəti olmaqla 10 may 2019-cu il, Bakı vaxtı ilə saat 14:00-da Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ingilis dilində əldə etmək istəyənlər üçün 562 (Beş yüz altmış iki ) manat və ya ekvivalent valyutada (ƏDV daxil), məbləğdə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
VOEN: 1503807961
Bank: ASC "Xalq" Bankının Baş filialı, VÖEN: 2000296061,
M/h: AZ24NABZ01350100000000067944, Kod: 501026, SWIFT: HAJCAZ 22
H/h: AZ65HAJCHCNAZN10000098111001 - AZN
H/h: AZ25HAJCHCNUSD10000098111002 - USD
H/h: AZ29HAJCHCNEUR10000098111003 - AVRO

İŞTİRAK HAQQI GERİ QAYTARILMIR.

***UBOC tərəfindən ləğv edildiyi hallar istisna olmaqla***

***IV. Təklifin təminatı:***
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin icrasının 2 ay ərzində yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1029, Bakı, H.Əliyev prosp., 121, SOCAR Tower, 8-ci mərtəbəl.
**Əlaqələndirici şəxs:** Nurlan Cəbrayilov
**Əlaqələndirici şəxsin vəzifəsi:** Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 15 54 (dax. 27346)
Mob: (+994 50) 655 4545,
(+994 50) 658 4545
E-mail: tenders@socar-umid.com Əlaqələndirici şəxs: Ümüd Cəfərov
Əlaqələndirici şəxsin vəzifəsi: Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 15 54 (dax. 27369)
Mob: (+994 50) 558 0007
E-mail: tenders@socar-umid.com

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az; www.azerweb.com; www.ikisahil.az;

***VIII. Texniki müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Texniki zərflərin açılışı 10 may 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 14:00-da, elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı e-maildən əldə edilə biləcək: tenders@socar-umid.com

**"Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
16
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 63 (7318) / Çərşənbə, 10 aprel 2019-cu il

# Qulaqda küy nələrin əlamətidir?



Mütəxəssislər bəzi insanların qulaqlarında yaranan səs-küyün obyektiv və subyektiv olmaqla iki yerə ayrıldığını bildiriblər.

Obyektiv səs-küy qulaqdakı səsləri xəstə ilə birlikdə başqalarının da eşitməsi halıdır. Subyektiv səs-küy isə səsləri sadəcə xəstənin özü eşidir. Qulaqda səs-küyün səbəbi əksər hallarda sadə səbəblərlə yanaşı, ciddi problemlər də ola bilər. Tez-tez qarşılaşılan səbəbləri isə daxili qulaqda yer alan eşitmə sinir uclarındakı zədələnmə, qulaq kiri, qulaq pərdəsindəki problemlər, qulaq infeksiyaları, allergik rinit, sinüzit, qulaq bölgəsində baş verən zədələr, orta qulaqda maye yığılması, orta qulaq sümüklərində oynaq yerlərinin sərtləşməsi, orta qulaqda yerləşən əzələlərin sıxılması, hamiləlik, ya da artıq çəki ilə bağlı yaranan qulaq problemləri, orta qulaq arteriya anomaliyaları, baş və boyun bölgəsindəki damar genişlənmələri, tarazlıq və eşitməni təmin edən sinirlərdəki şiş (akustik nörinom), boyun onurğalarının kirəclənməsi, diabet, troid hormon pozuqluqları və B12 vitaminin çatışmazlığı ilə bağlıdır.

Bunlardan əlavə, qulaqda səs-küyün yaranması beyin şişi ilə əlaqəli də ola bilər. Qulaqda səs-küy ilə bağlı problemlər tez-tez yaşanırsa, gecikmədən bir ENT mütəxəssisinə müraciət etməlisiniz. Bu vəziyyətdə müalicə fərqli ola bilər. Bu sahədə ixtisaslaşmış bir həkimə müraciət etmək və qulaqda yaranan səs-küyün gerçək səbəbini tapmaq vacibdir.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# Görüntüləri ilə "Ginnesin Rekordlar Kitabı"na düşən pişik





Nala adlı pişik "Ginnesin Rekordlar Kitabı"na düşüb.

Milli.Az xəbər verir ki, buna səbəb onun sayı 4 milyona çatan izləyicisinin olmasıdır.

Fotolarına 80-100 min arası "like" gələn Nala pozitiv görüntüləri ilə seçilir.

Qeyd edək ki, pişiyin 8 yaşı var.






# Uşaqları necə inkişaf etdirməli?



Müasir valideynlər uşaqlarını inkişaf etdirmək üçün lap körpə yaşlarından onları ağır yüklə yükləyirlər və nəticə acınacaqlı olur. Bu da valideynlərin yeniyetmə dövründə uşaqlarının heç nəyə həvəslərinin olmamasından şikayət etmələrinə gətirib çıxarır.

***Bəs, bunun səbəbi nədir?***

**"Tənbəl" valideyn gələcəkdə bir dahinin yetişməsinin şansıdır**

Bizlər böyüdükcə var gücümüzlə çalışırıq ki, övladlarımızı öz uşaqlıq qorxularımızdan qoruyaq. Müasir valideynlər ilk gündən uşaqlarını inkişaf etdirməyə və təhsil verməyə çalışırlar: dərnəklərə göndərirlər, körpə yaşlarından dil öyrənməyə vadar edirlər, ən güclü məktəb axtarışında olurlar, dərsdən əlavə hazırlıqlara göndərirlər və s. Onlar düşünürlər ki, uşaq nə qədər çox təhsil alsa gələcəkdə ən savadlı insan olacaq. Lakin bütün bunlar xülyadır hansı ki, bununla valideynlər uşaqların sinir sistemini pozurlar.

Psixoloqlar hesab edirlər ki, həyata əslində üç, dörd qiymət alan uşaqlar hazırlıqlı olurlar. Məhz onlar daha çox həyatda uğur əldə edirlər. Belə uşaqların valideynləri onların dərsləri ilə məşğul olmaqda tənbəllik edirlər və buna görə də, uşaqlar həyətdə daha çox oyun oynayaraq təbiətdə inkişaf edirlər. Onlar daha çox arzu edirlər, xəyal qururlar və bu da onlarda yaradıcılıq keyfiyyətinin inkişaf etməsinə imkan yaradır.

Lakin bütün bunlar o demək deyil ki, uşaq təhsildən uzaq qalmalıdır. Tərbiyə və təhsil həmişəki kimi əsas prinsiplərdən biridir. Yadda saxlamaq lazımdır ki, hər zaman hər yerdə ortaq məxrəci tapmaq lazımdır.

Uşağın təhsil alması üçün ona həddindən artıq təzyiq göstərmək uşaqlarda xroniki stressə səbəb olur. Onun gücü bitir və nəticədə uşağın yorğun olması onda psixomatik xəstəliklərin, hətta depressiyanın yaranmasına səbəb olur. Elm dünyasında uşaqlarınızın jandarmı deyil, bələdçisi olun.

**Yeni dünya, yeni insanlar, həyatın yeni qaydaları**

Müasir dünya dəyişkəndir. Bizlər hardan bilə bilerik ki, 10-20 ildən sonra hansı elm və bacarıqlar daha tələb olunan olacaq? Bir çox aktual peşələr yox olur, yerinə tamamilə yeniləri gəlir.

Müasir valideynlər uşaqlarını daha çox qoruyurlar. Uşaqlar illər boyu ağıllı olmurlar, onların qarşısında qlobal İnternet dünyası var hansı ki, dünyada olan bütün məlumatları ordan almaq mümkündür. Buna görə də, indi əsas keyfiyyət informasiyanı əldə etmək deyil, əsas keyfiyyət onu tapmaq və yenidən işləyib hazırlamaqdır. Buna görə də, həyatda uğur qazanmaq üçün uşaq baş verən dəyişikliklərə hazır olmalıdır.

Təbii ki, uşaq məktəb təhsili almalıdır. Lakin uşaqlar onlara maraqlı olan dərnəklərə və ya idman növünə getməlidir. Valideynlərin üzərinə düşən vəzifə onları yükləməməkləridir. Daha çox uşaqlarda başqa keyfiyyətləri inkişaf etdirmək lazımdır. Bunlardan bəziləri bunlardı:

** Verdikləri sözə və hərəkətə məsuliyyət daşımaları;*

** Şəxsi yükləmə və motivasiya*

** Komandada işləyə bilmək bacarığı;*

** Müsahibini eşitmək və dinləmək bacarığı;*

** Özünün və başqalarının emosiyalarını müəyyən etmək bacarığı;*

** Yaranan məsələni həll etmək bacarığı.*

Məhz bu vərdişlər uşaqlara aşılamaq lazımdır.

Daha çox məktəbəqədər uşaqlara diqqət yetirmək lazımdır, məhz bu dövr şəxsiyyət formalaşır.

*1. Məktəbəqədər uşaqlarla daha çox oyun oynamaq lazımdır. Oyunların hesabına onlar sosial rolunu dərk edir, qərar qəbul etməyi öyrənir və onlara cavab verir.*

*2. Uşağa daha çox nağıl oxumaq lazımdır. Uşaqlar nağıllarda olan qəhrəmanlara görə həyəcan keçirəndə onlarda mənəvi-əxlaqi dəyərlər formalaşır.*

Yeniyetmələr valideynlərin inamına və onların istəyinə hörmətlə yanaşmaqlarını istəyirlər. Onlarda motivasiya və liderlik keyfiyyətinin formalaşması üçün böyüklərin dəstəyi mütləqdir. Çalışın uşaqların istənilən yaşında təbii inkişafına təkan verəsiniz. Kömək edin, təzyiq etməyin. Başqalarının gözündə nə qədər yaxşı valideyn olduğunuzu göstərmək üçün onlardan istifadə etməyin. Məktəbdə uğurlu olmaları, müxtəlif dərnəklər, hazırlıqlara getmələri onlarda ünsiyyətcil, məqsədyönlü olmaq kimi keyfiyyətlərin məhv olmasına imkan verməməlidir. Məhz bunlar uşağa gələcəkdə daha çox uğur qazanmaq şansı verəcək.

**Könül Cavid,**
***"İki sahil"***

Təsisçi:
SOCAR

Baş redaktor:
Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini:
İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan:
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 10.04.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8363
İndeks: 0151, Sifariş: 1193

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.